QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 052 (6252) 20 mart 2021-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Ən yüksək Qələbə Zirvəsi - Qarabağ Azərbaycandır!

## İlham Əliyev: "Elə zirvə yoxdur ki, onu biz qət edə bilməyək"

Bax 4



## YAP Mərkəzi Aparatında partiyanın İdarə Heyətinin üzvü Mixail Zabelinin 75 illik yubileyi münasibətilə görüş keçirilib



Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Yuryeviç Zabelinin 75 illik yubileyi münasibətilə görüş keçirilib. YAP-dan AZƏRTAC-a bildiriblər ki, Yeni Azərbaycan Partiyası Sədrinin müavini- Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov yubilyarı doğum günü...

Bax 3

## Azərbaycanda xüsusi karantin rejimi uzadıldı



Nazirlər Kabineti Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə Qərar verib. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya bildirilib ki, Qərarda deyilir: "Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin...

Bax 5

## Humanizm siyasətinin növbəti parlaq nümunəsi

Bax 6



Dövlət başçısı ənənəvi olaraq, bayram günləri, bir sıra əlamətdar tarixlər öncəsi imzaladığı əfv sərəncamları ilə xeyli sayda insanı azadlığa qovuşdurur. Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Məhkum edilmiş bir...

## Ombudsman: "Əfv olunanlar Prezidentin bu humanist addımından nəticə çıxarmalıdırlar"

Bax 3



## Ermənilərin kilsə oyunları baş tutmadı

Bax 13



on bir neçə gündür ki, Rusiya KİV-lərində fəaliyyət göstərən erməni müəlliflərinin, eləcə də erməni lobbisinin nəzarəti altında olan mətbuat səhifələrində guya Şuşadakı "Kanaç Jam" adlı "erməni kilsəsinin" azərbaycanlılar...

## Erməni əsgər anaları: Övladlarımızı Qarabağdan çıxarın



Hazırda Azərbaycanın Qarabağ bölgəsində hərbi xidmətini davam etdirən Ermənistan vətəndaşı olan əsgərlərin valideynləri İrəvanda hökumət binasının qarşısında aksiya keçirirlər...

Bax 5

## Prezidentə müraciət edən erməni bloger hansı sirləri açdı?



Bax 5

## Vazgen Manukyan: "Seçkilərdə iştirak etməyəcəyəm, keçirilməsinə də icazə verməməliyik"



Bax 13

## AXCP-Müsavat cütlüyü növbəti dəfə xain və düşmən mövqeyində olduğunu isbatladı

Bax 12

# Novruz yeni günün başlanğıcıdır

*İlham Əliyev: "Ruhumuzun yenilməzliyinin təntənəsinə çevrilən və bizi dünyaya məğrur millət olaraq tanıdan şanlı zəfərimiz Azərbaycana əbədi bahar gətirmişdir"*








### İlham Əliyev: "Ruhumuzun yenilməzliyinin təntənəsinə çevrilən

Elimizə, obamıza yeni gün gəlir - Novruz gəlir. Əsrlərdən gələn Novruz həyatımıza yeni ruh, yeni ab-hava, gözəllik gətirir. Uzun illər aparılan tədqiqatlar zamanı aydın olub ki, qədim köklərə malik Azərbaycan əsrlər boyu maddi və mənəvi xəzinəsini qoruyub-saxlaya bilmiş və zəngin irsdə xalqın soykökünə bağlı olan adət-ənənələri - Novruz ənənələrini yaşadaraq, əsrimizə - yeni yüzilliyə qədər gəlib çatmışdır. Azərbaycan Prezidenti İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edərkən Novruz bayramının bizə ulu əcdadlarımızın təbiətin əbədi nizamına ehtiramını ifadə edən müqəddəs yadigarı olduğunu bildirib. Bu bayramın Azərbaycan xalqının qədim və zəngin dünyagörüşünün, gələcəyə nikbin baxışının, bütövlükdə milli varlığımızın dolğun təcəssümü olduğunu bildirən dövlət başçısı mədəni sərvətlər xəzinəmizdə müstəsna yer tutduğunu diqqətə çatdırıb.

Minilliklərin sınağından çıxaraq, bu günə gəlib çatmış Novruz bayramını hələ Azərbaycan xalqı Sasanilər dövlətinin tərkibində olduğu zaman qeyd edib. Daş dövrünə aid olan əşyalar qazıntılar zamanı əldə olunan mənəvi mədəniyyət abidələrimiz Novruz bayramının qədim tarixi olduğunu təsdiqləyən amillərdir. Azərbaycan klassikləri olan Nizami Gəncəvi, Şah İsmayıl Xətai, Əfzələddin Xaqani kimi dahilərimiz baharın gəlişini əks etdirən nümunələr yaratmışlar. Novruz bayramının yaranması tarixinə həsr olunmuş yazılardan Nizamülmülkün "Siyasətnamə"sini və Ömər Xəyyamın "Novruznamə"sini və başqalarını nümunə olaraq göstərmək mümkündür.

Əlbəttə ki, müstəqil Azərbaycan dövlətinin mədəniyyət siyasəti, islami dəyərlərə yeni prizmadan baxış kimi meyilləri ictimai düşüncənin formalaşmasında özünü göstərir. Bu amillər zaman-məkan kontekstində həllini tapamaqdadır. Dünyada gedən qloballaşma və inteqrasiya prosesində ölkəmiz uğurlu gələcəyi təmin etmək üçün tarixi köklərimizə söykənir. Azərbaycan Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü siyasəti və xalqa göstərdiyi yüksək diqqət və qayğısı Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunması və beynəlxalq səviyyədə təbliği məqsədinə istiqamətlənmişdir.

Xalqın etnik tarixi inkişafı bir çox maddi və mənəvi amillərlə tənzimlənən mürəkkəb bir prosesdir. Son illərdə Azərbaycanın milli-mənəvi mədəniyyətinin tarixi mənzərəsinə nəzər salaraq, onun əsas inkişaf vasitələrini üzə çıxarmağa çalışsaq, hər şeydən əvvəl, mövcud amillərin rol oynadığını görərik. Dünyada milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutub. Xalqın toy-büsat mərasimi, bayram adət-ənənələri, Novruz mərasimləri və yas mərasimləri onun milli-mənəvi dəyərlərini özündə yaşadır.

Bütün həyatını Azərbaycan xalqının rifahına və çiçəklənməsinə sərf etmiş Ümummilli Liderimiz Heydər Əliyevin sovet hakimiyyəti illərində Azərbaycana birinci rəhbərliyi dövründə xalqımızın yaddaşında özünə yuva qurmuş Novruz bayramı milli-mənəvi xüsusiyyətləri və dəyərləri özündə əks etdirməklə, dövlət səviyyəsində qeyd edilmiş, bununla da, imperiyanın sərt qadağalarına baxmayaraq, milli bayramımız qorunaraq, nəsillərdən-nəsillərə ötürülməklə saxlanılmışdır. Azərbaycan xalqı müstəqillik əldə etdikdən sonra, xalqın təkidi və tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin, bilavasitə səyləri nəticəsində, Novruz bayramı dövlət bayramı elan olunmuş, Onun iştirakı ilə milli bayramımız ümumxalq şənlikləri çərçivəsində yüksək təmtəraqla qeyd edilmişdir.

Ümummilli Lider Heydər Əliyevin adət-ənənələrimizin və milli-mənəvi dəyərlərimizin qorunması sahəsində fəaliyyətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi və tapşırığı əsasında hər il dövlət və milli bayramlarımız, xüsusilə, Novruz bayramımız ildən-ilə daha yüksək təmtəraqla qeyd edilərək, xalqımızın silinməz yaddaşına həkk olunmaqdadır. Yaz bayramının ümumxalq bayramı mahiyyəti qazanması dövlət müstəqilliyimizin uğurlarıdır.

### "İNANIRAM Kİ, YAZ FƏSLİNİN QURUB-YARATMAQ ƏZMİMİZİ ARTIRAN YENİLƏŞDİRİCİ AB-HAVASI İLƏ HƏMAHƏNG BİRLİK VƏ HƏMRƏYLİK NÜMAYİŞ ETDİRƏCƏK"

Azərbaycanın qədim, rəngarəng mənəvi dəyərləri, mədəni irsi hazırda xalqın fəxr mənbəyi və dünya mədəniyyətinə töhfəsi qismində çıxış edir. Bu sahəyə dövlət qayğısının günü-gündən artması və beynəlxalq təcrübənin tətbiqi istiqamətində görülən işlər qeyri-maddi mədəni irsin gələcəyinə nikbin baxmağa ümidləri artırır. Beynəlxalq ictimaiyyətin diqqət və maraq mərkəzində olan, Azərbaycan xalqının adət və ənənələrini, milli-ənənəvi xüsusiyyətlərini özündə əks etdirən, soydaşlarımıza və ölkə vətəndaşlarımıza sevinc bəxş edən Novruz bayramı dövlət səviyyəsində qeyd olunur. Xalqımız bu gözəl bayramı gözəl nəticələrlə, yaxşı əhval-ruhiyyə ilə qarşılayır. Təbrikdə bildirilib ki, yaz bayramının Odlar diyarına builki gəlişi xüsusən əlamətdardır. "Şadam ki, müstəqilliyimizin bu baharına dövlətçilik tariximizdə qızıl hərflərlə əbədi qalacaq və həyatımıza hələ yeni-yeni nailiyyətlər bəxş edəcək parlaq Qələbə ilə qədəm qoymuşuq. Haqq işi uğrunda mübarizə duyğusundan aldığımız misilsiz mənəvi güclə biz sınaq anında yumruq kimi birləşərək əzəli torpaqlarımıza xaincəsinə uzanan əlləri kəsmiş, yurdumuzu bədxah düşməndən təmizləmiş və ədaləti qanımız bahasına bərpa etmişik. Ruhumuzun yenilməzliyinin təntənəsinə çevrilən və bizi dünyaya məğrur millət olaraq tanıdan şanlı Zəfərimiz Azərbaycana əbədi bahar gətirmişdir", - deyə dövlətimizin başçısı qeyd edib.

Dövlət başçısı irəlidə bizi işğaldan azad olunmuş yurd yerlərimizdə nəhəng quruculuq işləri gözlədiyini vurğulayıb: "İnanıram ki, yaz fəslinin qurub-yaratmaq əzmimizi artıran yeniləşdirici ab havası ilə həmahəng birlik və həmrəylik nümayiş etdirəcək, böyük qayıdış planımızı sülh və əmin-amanlıq şəraitində uğurla gerçəkləşdirəcək, doğma Qarabağı qısa müddətdə dirçəldəcəyik".

Hamıya bahar əhval-ruhiyyəsi arzu edən Cənab Prezident xalqımızın qalibiyyət ovqatını bütün qəlbi ilə yaşadığı bu bayram günlərində bir daha Vətənimizin ərazi bütövlüyü naminə canlarını fəda etmiş qəhrəman övladlarımıza rəhmət diləyərək, onların əziz xatirəsini dərin ehtiramla yad olunduğunu qeyd edib.

Novruz bayramınız MÜBARƏK! Bu bayram hər bir ailəyə bol ruzi və sevinc bəxş etsin!

***Zümrüd BAYRAMOV***

# YAP Mərkəzi Aparatında partiyanın İdarə Heyətinin üzvü Mixail Zabelinin 75 illik yubileyi münasibətilə görüş keçirilib





Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Yuryeviç Zabelinin 75 illik yubileyi münasibətilə görüş keçirilib. YAP-dan AZƏRTAC-a bildiriblər ki, Yeni Azərbaycan Partiyası Sədrinin müavini- Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov yubilyarı doğum günü münasibətilə təbrik edərək ona möhkəm cansağlığı, çoxşaxəli fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

Yubilyarın siyasi fəaliyyətindən bəhs edən Tahir Budaqov qeyd edib ki, Mixail Zabelin Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü, Azərbaycan Rus İcmasının rəhbəri kimi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.

Vurğulanıb ki, Mixail Zabelinin fəaliyyətinin mühüm bir dövrü görkəmli siyasi və dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyevlə bağlı olub. Ulu Öndər Azərbaycan SSR-in Birinci katibi işləyərkən onun rəhbərliyi altında çalışmış, o cümlədən Birinci katibin referenti vəzifəsində işləmişdir.

Mixail Zabelin ulu öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının təşkilatlanma prosesində fəallıq göstərmiş, partiyanın Siyasi Şurasının və İdarə Heyətinin üzvü kimi üzərinə düşən vəzifəni hər zaman layiqincə yerinə yetirmiş, hazırda YAP İdarə Heyətinin üzvü kimi siyasi fəaliyyətini uğurla davam etdirir.

O da qeyd edilib ki, Mixail Zabelinin rəhbərlik etdiyi Azərbaycan Rus İcması xalqlarımız arasında tarixi, mədəni əlaqələrin keyfiyyətcə yeni müstəvidə inkişafına öz töhfəsini verməkdədir. Bütün bunlar nəzərə alınaraq, onun ictimai-siyasi fəaliyyəti ölkə Prezidenti İlham Əliyev tərəfindən daim yüksək qiymətləndirilib, müxtəlif orden və medallarla təltif olunub.

Görüşdə çıxış edən Mixail Zabelin fəaliyyətinə verilən yüksək qiymətə, deyilən xoş sözlərə görə təşəkkürünü bildirib. Yubilyar Yeni Azərbaycan Partiyasının VII Qurultayında ona yenidən yüksək etimad göstərildiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə, Azərbaycanın Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini Mehriban xanım Əliyevaya öz dərin minnətdarlığını bildirərək, Azərbaycanın inkişafı naminə bundan sonra da əlindən gələni əsirgəməyəcəyini qeyd edib.

Çıxışında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Rusiya səfərinə toxunan Mixail Zabelin bu mühüm hadisənin Azərbaycan-Rusiya münasibətlərinə öz töhfəsini verdiyini önə çəkərək bildirib ki, xalqlarımız bundan sonra da mehriban qonşuluq və sülh şəraitində yaşayacaq. Mixail Zabelin vurğulayıb ki, Azərbaycan onun doğma Vətənidir. 44 gün davam edən Vətən müharibəsində cəmiyyətimizin nümayiş etdirdiyi möhtəşəm səfərbərlik birliyimizi, həmrəyliyimizi nümayiş etdirdi. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri fədakarlıq, qəhrəmanlıq göstərdi, Vətən uğrunda vuruşdu. “Biz artıq Qalib Azərbaycanın vətəndaşlarıyıq”, - söyləyən Mixail Zabelin bu Zəfəri yaşadan dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, rəşadətli Azərbaycan Ordusuna minnətdarlığını ifadə edib. Bildirib ki, Azərbaycan artıq postmüharibə dövrünün reallıqlarını yaşayır. Bu reallıqlar ölkəmizi daha uğurlu gələcəyə istiqamətləndirir.

# Statistika Komitəsi ilə ÜST-nin əməkdaşlığının inkişaf perspektivləri müzakirə olunub



Martın 18-də Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan Respublikasındakı Nümayəndəliyinin rəhbəri xanım Fatoş Hande Harmancı ilə görüşüb. SİA-nın verdiyi məlumata görə, komitədən bildirilib ki, görüşdə Dövlət Statistika Komitəsi ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ombudsman: “Əfv olunanlar Prezidentin bu humanist addımından nəticə çıxarmalıdırlar”



Azərbaycan Respublikası Prezidentinin 625 məhkumu əhatə edən əfv Sərəncamı imzalaması məhkumları, onların ailə üzvlərini və yaxınlarını çox sevindirir. Yürütdüyü yüksək humanist siyasətə, insan hüquqlarına verdiyi dəyərə görə dövlətimizin başçısına dərin təşəkkürümüzü bildiririk. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Səbinə Əliyeva martın 19-da jurnalistlərə müsahibəsində deyib.

“Ombudsmanın 72 məhkumun əfv olunması ilə bağlı müraciəti dövlətimizin başçısının imzaladığı Sərəncamla təmin olunub və onlar azadlığa buraxılıblar. Bu münasibətlə əfv olunanları təbrik edirəm. Onları Azərbaycan Prezidentinin bu humanist addımından nəticə çıxararaq, gələcəkdə dövlətimizə, xalqımıza, millətimizə layiqli vətəndaş olmağa çağırıram”, - deyə Səbinə Əliyeva bildirib.

# XİN: Azərbaycan Prezidentinin Azərbaycan ərazilərinə səfərləri Ermənistan XİN-nin şərh mövzusu ola bilməz



Azərbaycan Respublikasının Prezidentinin Azərbaycan ərazilərinə səfərlər etməsi Ermənistan Xarici İşlər Nazirliyinin şərh mövzusu ola bilməz. SİA-nın məlumatına görə, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Ermənistan Xarici İşlər Nazirliyinin 18 mart 2021-ci il tarixli bəyanatına dair şərhində deyilir. Bildirilir ki, Ermənistan XİN-i mövcud olmayan dağıntılar barədə danışmadan öncə, 30 ilə yaxın müddətdə Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən həyata keçirilən tarixi, mədəni və dini irsin talan edilməsi və “təmizləmə” siyasəti, o cümlədən yüzlərlə abidələrin yerlə yeksan edilməsi, 63 məscidin tamamilə yer üzündən silinməsini unutmamalıdır: “Ermənistan tərəfi hələ də anlamır ki, bu kimi ritorikadan uzaqlaşmaq və imzalanmış üçtərəfli bəyanatların icrasına köklənmək lazımdır. Revanşist və təhlükəli fikirlərlə öz əhalisini zəhərləmək Ermənistana yaxşı heç nəyi vəd etmir”.

# “Əfv sərəncamı ölkə rəhbərliyinin insan hüquqlarına və...”



Əli Hüseynli
Milli Məclisin deputatı

Prezident İlham Əliyevin Azərbaycan Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndini rəhbər tutaraq məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında martın 18-də imzaladığı sərəncam ölkə ictimaiyyəti tərəfindən dövlət başçısının növbəti humanist addımı kimi alqışlanıb.

Cəmi 625 nəfəri əhatə edən bu aktla azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 475 nəfər şəxs cəzanın çəkilməmiş hissəsindən azad edilib, 100-dək şəxsin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb, şərti cəza alıb, cəzasının çəkilməsi təxirə salınıb, azadlığı məhdudlaşdırılıb, islah işləri və cərimə cəzasına məhkum edilmiş bir sıra şəxslər azadlığa buraxılıblar. Ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş bir neçə şəxsin cəzasının 25 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilməsi isə ölkə rəhbərliyinin siyasi iradəsini əks etdirən və insan həyatının dəyərinə verdiyi yüksək qiymətin göstəricisidir.

Bundan öncə imzalanmış analoji hüquqi aktlardan mahiyyət və mənaca bir qədər fərqli olan bu sərəncam Azərbaycanın ərazi bütövlüyünün bərpa edildiyi, düşmən üzərində böyük Qələbənin qazanıldığı və azad Qarabağın dirçəlişi ilə ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoyduğu əlamətdar bir dövrə təsadüf edir. Sərəncamın önəmi həm də onunla bağlıdır ki, dövlət başçısının tapşırığı əsasında sənədin hazırlanması prosesində Vətən müharibəsində qəhrəmanlıq nümayiş etdirmiş döyüşçülərin valideynlərinin və yaxınlarının müraciətlərinə Əfv Məsələləri Komissiyası tərəfindən xüsusi diqqət yetirilib. Bu mənada cənab İlham Əliyevin yüzlərlə ailəyə Novruz hədiyyəsi kimi dəyərləndirilən olan bu addımı həm də şərəfli bayram günlərini bizə yaşadan ölməz şəhidlərimizin ruhuna ehtiram, qazilərimizin və Qarabağ müharibəsi iştirakçılarının vətənpərvər duyğularına hörmət kimi dəyərləndirilməlidir.

Digər tərəfdən, bu Sərəncam, sənədin preambula hissəsində qeyd olunduğu kimi, məhkumların şəxsiyyətini, səhhətini, ailə vəziyyətini, törətdikləri cinayətlərin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, cəza çəkdikləri müddəti və həmin müddətdə davranışlarını nəzərə alaraq, humanizm prinsiplərinə əsaslanaraq imzalanıb. Məşğuliyyətindən, milli və dini mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq sənədin təsir dairəsinə düşmüş şəxslər sırasında cəmiyyətin bütün təbəqələri təmsil edən insanların yer alması onu göstərir ki, Azərbaycan dövləti, hər zaman olduğu kimi, demokratik dəyərlərə böyük önəm verir və onun üçün hər bir vətəndaşın hüquq və azadlıqları prioritetdir.

Dövlət başçısının sərəncamı bu insanlara azad yaşamaq şansı verməklə onlara ailələrinə qovuşmaq, etdikləri səhvdən nəticə çıxarmaq və cəmiyyətin tamhüquqlu üzvləri kimi sivil fəaliyyət göstərmələri üçün yol açır.

# Ən yüksək Qələbə Zirvəsi - Qarabağ Azərbaycandır!

## *İlham Əliyev: “Elə zirvə yoxdur ki, onu biz qət edə bilməyək”*

***Son 17 il - güclü dövlət, güclü ordu, güclü iqtisadiyyat. Ali baş Komandanımız, Prezident İlham Əliyev diplomatiyasının uğurlu “Dəmir siyasəti”. Məhz bu “dəmir siyasətin” nəticəsində Azərbaycan ən böyük Qələbə Zirvəsini - Qarabağ Azərbaycandır zirvəsini qət edə bildi.***



Martın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Füzuli və Xocavənd rayonlarında və Şuşa şəhərində oldular. Ən yüksək zirvələrin müəllifi Müzəffər Ali Baş Komandan Azıx mağarasına gedərkən tarixi sərvətimiz olan Azıx mağarasında dünyanın ən qədim insanının yaşayış yerlərindən biri olduğunu deyərək bildirdi ki, 800 pillə qalxdığımız bu mağarada mənfur düşmən qanunsuz olaraq işlər aparmışdır: “Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətizdirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər. Onları məcbur edəcəyik”.





### İşğalçı dövlətə və ona dəstək verənlərə növbəti önəmli mesaj

Azərbaycan Prezidenti İlham Əliyev əvvəlki səfərlərində olduğu kimi, bu dəfə də yenə çox önəmli mesajlar verdi. Azərbaycan Prezidenti İlham Əliyev görkəmli alim, arxeoloq Məmmədəli Hüseynovun 1960-cı ildə aşkar etdiyi, dünyanın ən qədim insanının yaşayış məskənlərindən olan Azıx mağarası ilə bağlı səsləndirdiyi fikirlər hər birimizi qürurlandırır: “Azıx mağarasını azərbaycanlı alim aşkarlayıb. Azıx mağarası Azərbaycan ərazisində yerləşir...Biz bu zirvəni qət etmişik. Bütün zirvələri qət edəcəyik. Elə zirvə yoxdur ki, onu biz qət edə bilməyək. Gəlin, bir yerdə deyək: “Azıx Azərbaycandır!”, “Qarabağ Azərbaycandır!”.

Bəli, dövlət başçımız son 17 il prezidentlik fəaliyyəti dövründə elə bir zirvə yoxdur ki, onu qət etməsin. Ali Baş Komandan İlham Əliyev 30 il mənfur düşmənin işğal etdiyi ən böyük zirvəni - “Qarabağ Azərbaycandır!” Zirvəsini “dəmir yumruq” siyasəti ilə 44 gündə qət etdi. Və bu gün qət etdiyi “Qarabağ Azərbaycandır” zirvəsinə etdiyi hər tarixi səfəri ilə bir tarix yazılır və gələcəkdə bu tarixi səfərlərin tarixi ilə bağlı tədqiqatlar aparılacağını deyən dövlət başçımız bildirib ki, burada qanuni yollarla tədqiqatlar aparılacaq: “Bundan sonra azərbaycanlı alimlər və onların dəvəti ilə gələcək xarici alimlər burada qanuni yollarla tədqiqatlar aparacaqlar”.



**“Bu gün də Ermənistanı müdafiə edən xarici dairələr gözlərini açıb baxsınlar onların vəhşiliyinə. Onlar kimi müdafiə edirlər?!”**

Çünki Qarabağ həqiqət meydanıdır və tarixə qızıl xətlə yazılan və 2020-ci il sentyabrın 27-dən bəri konkret həqiqət meydanı olaraq, müqayisə imkanı qazanmış beynəlxalq birlik dünya erməniliyinin astarının üzündən betər olduğunu, iç üzünü təkzibolunmaz şəkildə gördü. Azərbaycan Prezidentinin vurğuladığı kimi, indi gəlsinlər, görsünlər illər uzunu kimi müdafiə ediblər: “Bura Füzuli şəhəridir. Amma şəhərdən əsər-əlamət qalmayıb. Şəhər yoxdur, dağıdılıb. Ermənilər dağıdıblar. İşğal dövründə gəlib bizim binalarımızı söküb, binaların daşlarını, damlarını aparıblar, oğru kimi, talançı kimi. Bunlar, Füzuli şəhərinin qalıqlarıdır. Bu gün də Ermənistanı müdafiə edən xarici dairələr gözlərini açıb baxsınlar onların vəhşiliyinə. Onlar kimi müdafiə edirlər?!”.

Azərbaycan Prezidenti səfər zamanı, həmçinin 44 günlük müharibənin Azərbaycan və Ermənistan arasında olan fərqi də bir daha dünyaya aşkar şəkildə nümayiş etdirdiyini söylədi. Vətən müharibəsi bir daha dünyaya göstərdi ki, Azərbaycan bütün xalqların tarixinə, dininə və mədəniyyətinə hörmət edən, Ermənistan isə monoetnik dövlətdir. Hər zaman tarixi faktların saxtalaşdırılması rəsmi İrəvanın dövlət siyasətinin əsasını təşkil edir. Bütün bunlar onu deməyə əsas verir ki, Ermənistan uğursuz bir dövlətdir. Məhz buna görə də, bu ölkənin və dövlətin axırı uçurumdur və bunu bir daha 44 günlük müharibə sübut etdi: “Bütövlükdə 44 günlük şanlı müharibəmiz, bizim Zəfərimiz bu gün dünyanın aparıcı ali məktəblərində öyrənilir və artıq hərbi ekspertlər, mütəxəssislər, hətta bir çox ölkələrin siyasətçiləri bizim müharibədən bəhs edərək bildirirlər ki, bu, XXI əsrin müharibəsidir. Azərbaycan müharibədə Zəfər çaldı, düşməni əzəli torpaqlarımızdan qovdu, tarixi ədaləti bərpa etdi”.

Bəli, haqqın, ədalətin tərfdarı olan, düşmənin belini qıran, başını əzən Ali Baş Komandanımız Azərbaycanın ərazi bütövlüyünü bərpa edən lider kimi adını əbədi olaraq tarixə yazdırdı, işğaldan azad edilən torpaqlarımıza həyatı qaytarmaq, dirçəltmək istiqamətində işlər görülməyə başlandı. Hazırkı pandemiya şəraitində dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə Azərbaycan Prezidentinin bu təşəbbüsü bir daha dövlətimizin gücünü və qüdrətini nümayiş etdirir.

Doğrudan da, işğaldan azad olunan rayon və kəndlərimizdə abidələrimizi, səfalı guşələrimizi yararsız və dağıdılmış vəziyyətdə görmək çox ağrılıdır! Ancaq bütün bu çətinliklərə baxmayaraq, xalqımız inanır ki, Prezident İlham Əliyevin rəhbərliyi altında rayon və kəndlərimizə yeni nəfəs gələcək, yenidən abadlaşdırılacaq, mədəni, tarixi abidələrimiz bərpa olunacaq, qaçqın və köçkün insanlarımız öz yurd-yuvalarına dönəcəklər, bir sözlə, “Qarabağ Azərbaycandır” zirvəsi cənnətə çevriləcək. Dövlət başçımızın dediyi kimi: “Biz işğaldan azad edilmiş yerlərdə şəhərlər quracağıq, həyatı qaytaracağıq, bütün dağılmış yerləri bərpa edəcəyik”,-deyən Azərbaycan Prezidenti bildirib ki, böyük quruculuq işlərinə başlanılıb: “Bu gün Füzuli-Hadrut yolunun təməlini qoyacam. Bu avtomobil yolunun inşası azad edilmiş ərazilərin inkişafı üçün böyük əhəmiyyət daşıyır”. Bunu Prezident İlham Əliyev Füzuli və Xocavənd rayonlarına səfəri zamanı bildirib.

Görünən isə odur ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev bu günə qədər bütün vədlərini yerinə yetirdiyi kimi “Qarabağı cənnətə çevirəcəyik” vədini də tezliklə reallaşdırmaq üçün siyasi iradə və qətiyyət nümayiş etdirir. Bu da xalqımızda əminlik, inam yaradır.

Bir sözlə, iqtisadi güc olanda, hərbi güc də möhkəm olur. Prezident İlham Əliyev 17 il ərzində qüdrətli iqtisadiyyata malik Azərbaycan və güclü Müzəffər Azərbaycan Ordusunu yaratdı. Nəticədə Prezident, Ali Baş Komandan İlham Əliyevin qurduğu güclü iqtisadiyyat və güclü ordu 30 il davam edən işğala 44 gündə son qoydu. Bununla da Azərbaycan Prezidenti İlham Əliyev 17 illik prezidentlik fəaliyyətində ən böyük zirvəni - “Qarabağ Azərbaycandır” zirvəsini qət etdi və bundan sonra da “Dəmir siyasət”i ilə hər hansı zirvəni qət etməyə qadirdir. Dövlət başçımızın dediyi kimi: “Elə zirvə yoxdur ki, onu biz qət edə bilməyək”.

**RƏFİQƏ KAMALQIZI**

# Prezidentə müraciət edən erməni bloger hansı sirləri açdı?

*İşxan Verdyan: "Hökumətin ünvanına tənqid də var, amma əhali kütlə olaraq Paşinyana alternativ görmür"*

***Məlum olduğu kimi, tanınmış erməni fəalı və blogeri İşxan Verdyan Prezident İlham Əliyevə Facebook sosial şəbəkəsi üzərindən müraciət edərək, Azərbaycanın dövlət başçısından Ermənistanın eks-prezidentləri - Robert Koçaryanın və Serj Sarqsyanın ekstradisiyalarını xahiş etmişdi. O, bu adamların Azərbaycan doğumlu olduqlarını qeyd edərək, hazırkı məqamda da terrorçuluq ənənələrinə sadiq qaldıqlarını yazıb və bildirib ki, onlar eyni zamanda Ermənistanda da xalq arasında uçurum yaradır, kirli siyasi məqsədlərini reallaşdırmaq üçün həb r qanunsuz əməllərə əl atmağa hazır olduqlarını gizlətmirlər.***



SİA xəbər verir ki, Caliber rusdilli informasiya portalı adıçəkilən erməni fəalı və blogeri ilə əlaqə saxlayaraq onun fikirlərini öyrənib. Maraq doğurduğu üçün həmin fikirlərin bir hissəsini oxucularımızın diqqətinə çatdırırıq.

Belə ki, Verdyan müsahibəsi əsnasında Ermənistandakı mövcud vəziyyəti, keçirilməsi gözlənilən növbədənkənar parlament seçkilərini şərh edərək bildirib ki, xalq birmənalı olaraq siyasətlə maraqlanır, gələcək barədə düşünür, xüsusilə ötən ilin payızında baş verən hadisələrdən sonra. "Yaxşı bir nümunə - Nikol Paşinyanın çağırışları ilə İrəvanda mitinqlər keçirilirdi və həmin vaxt böyük kütlələr baş nazirə dəstək göstərdilər. Şəxsi fikrimə görə, cəmiyyətdəki situasiya stabildir. Xalq bilir ki, seçilmiş hakimiyyət var və problemləri həll edəcək. Hə, hökumətin ünvanına tənqid də var, amma əhali kütlə olaraq Paşinyana alternativ görmür. Ancaq kimlər ki özlərini hazırkı hakimiyyətə alternativ görürlərsə, sadəcə, keçiriləcək seçkilərdə Nikol Paşinyanın partiyasına qalib gəlmək şansları görünmür. Əgər iyunun 20-də səsvermə keçiriləcəksə, onda Ermənistandakı vəziyyət stabilləşəcək", deyə erməni blogeri bildirib.

### "Vazgen Manukyan çoxdan keçilmiş prosesdən başqa heç nə deyil"

Növbədənkənar seçkilərə qatılmayacağını bəyan edən erməni ümumüxalifətinin lideri Vazgen Manukyanın iddialarını da şərh edən İşxan Verdyan bildirib ki, sosioloji sorğuların nəticələrinə görə erməni ictimaiyyətinin əksər hissəsi Paşinyana dəstək göstərirlər. Vazgen Manukyana gələndə isə bu, sadəcə, addır və bu adın arxasında heç kim dayanmır, hətta onun özü də özü barədə heç bir təəssürata malik deyil. Yəni Vazgen Manukyan çoxdan keçilmiş prosesdən başqa heç nə deyil.

"Ermənistanda növbədənkənar seçkilərin keçirilməsi üçün hərbi vəziyyətin aradan qaldırılması lazımdır. Əgər bu baş verərsə, müxalifətin fəallaşması arta bilərmi?" sualını cavablandıran erməni fəalı xatırladıb ki, mitinqlər əvvəllər də keçirilib. "Müxalifətlə yanaşı, Nikol Paşinyana da dəstək mitinqləri baş tutub və yeri gəlmişkən, bu mitinqlərdə inzibati resurslardan istifadə edilməyib. Hərbi vəziyyət isə müxalifətin aksiyalar keçirməsinə mane olmurdu, ona görə də heç nə dəyişməyəcək. Qoy mitinqlərini keçirsinlər, niyə də yox?", deyə Verdyan bildirib.

### "Robert Koçaryan və Serj Sarqasyan Azərbaycanın cinayət məcəlləsinin altına düşə bilərlər"

Erməni ictimai-siyasi fəalı Azərbaycan Prezidenti İlham Əliyevə müraciəti məsələsinə də toxunaraq qeyd edib ki, o, qarşı tərəfdən hər hansı bir reaksiyanı gözləmirdi və indi də gözləmir: "Mən erməni ictimai rəyinin diqqətini vaxtilə Ermənistana sahiblik etmiş Serj Sarqsyan və Robert Koçaryan kimi adamlara tərəf yönəlməsini istəyirdim. Onlar sadə vətəndaşlardırlar və Azərbaycanın cinayət məcəlləsinin altına düşə bilərlər. Onlar yerləri həbsxana olan cinayətkardırlar. Və harada öz cəzalarını çəkəcəkləri də önəmli deyil - Ermənistanda, ya da Azərbacanda. Əsas hədəf onların cəmiyyətdən izolə edilmələridir. Mən də bu adamların "sakral oreolluqlarını" yığışdırmaq istəyirdim".

"Ermənistan respublikası tərəfindən Koçaryanın və Sarqsyanın Azərbaycana təhvil verilmələri prosedurlarına heç nə mane ola bilməz"

Vardyan ona verilən daha bir maraqlı suala diqqətçəkici cavab verib. Belə ki, "Azərbaycan hakimiyyətinin Baş prokurorluq səviyyəsində Ermənistan hakimiyyətinə Koçaryanın və Sarqsyanın ekstradisiya olunması ilə bağlı müraciət edəcəyi halda erməni hökumətinin reaksiyası necə ola bilər?", sualını cavablandıran bloger xatırladıb ki, hazırda Ermənistanda Koçaryana və Sarqsyana qarşı cinayət işləri açılıb. "Hə, onlar həbsxanada deyillər, ancaq bu, o demək deyil ki, onlar tam azadlıqdadırlar. Yəni hər şey qanunvericiliyə əsaslanır və hesab edirəm ki, əgər qanunlara əməl olunarsa, həyata keçirilərsə onların Ermənistan respublikası tərəfindən Azərbaycana təhvil verilmələri prosedurlarına heç nə mane ola bilməz", İşxan Vedryan deyib.

### "Erməni cəmiyyətində revanş ideyası populyar deyil, bu, düşünülmüş təbliğat gedişidir"

Ermənistanda ictimai rəyin hansı vəziyyətdə olması, eləcə də revanş marağında qalması ilə bağlı məsələyə toxunan Verdyan belə düşünmədiyini deyib: "Yox. Erməni cəmiyyətində revanş ideyası populyar deyil, bu, düşünülmüş təbliğat gedişidir, guya ermənilər qisas almaq istəyirlər. Bunu Azərbaycanla Türkiyənin Ermənistana qarşı düşmən baxışlarını şərh edənlər şişirdirlər. Həmin qüvvələrin məqsədləri həm də budur ki, azərbaycanlıları qızışdırsınlar, həm də Ermənistanda daxili xaos yaratsınlar. Ermənilər bugünkü gün haqqında fikirləşirlər və sabah nəyin baş verəcəyini öyrənməyə çalışırlar. Xalqı heç bir hərbi kampaniya maraqlandırmır. Heç kim döyüşmək istəmir, gələcəkdəki sülh barədə düşünmək lazımdır".

"Müharibə, düşmənçilik onların biznesidir, Ermənistanda antitürk hissləri də onların biznesidir"

Ermənistanda qarabağlı və irəvanlı klanları arasında mövcud olan qarşıdurmalar haqqında da danışan İşxan Verdyan Qarabağ klanını istisna etməklə irəvanlı klanı haqqına həyatında ikinci dəfə eşitdiyini bildirib. Onun sözlərinə görə, İrəvanda xalq tərəfindən seçilmiş hakimiyyət var, seçkilər qanuni və şəffaf keçirilib. "Qarabağ klanına gəlincə, o çoxdan mövcuddur. O, Birinci Qarabağ müharibəsi zamanı formalaşdırılıb və nümayəndələri hakimiyyətə yiyələnərək yaxın illərə qədər orada qalmağa nail oldular. İndi qarabağlı klanının adamları heç nəyə baxmayaraq hakimiyyət stukturlarında qalmağa müyəssər oldular və hakimiyyətin qanuni qərarlarına mane olmağa çalışır, təkərləri altında kötüklər atmağa cəhd edirlər. Onlar Robert Koçaryan və Serj Sarqsyan tərəfindən idarə edilirlər. Kimlər ki, revanş haqqında danışırlarsa, təxribatçı bəyanatlar səsləndirirlərsə, məhz Qarabağ klanının nümayəndələridirlər. Müharibə, düşmənçilik onların biznesidir, Ermənistanda antitürk hissləri də onların biznesidir", Verdyan bildirib.

### "Şərin kökünü Qarabağ klanında axtarın"

Ermənistanın sərhədlərin açılması, nəqliyyat dəhlizləri və s. mümkün təkliflərlə bağlı mövqeyinə də toxunan erməni blogeri buna qarşı bəyanatların verilməsinə də münasibətini açıqlayıb: "Hər şey yenidən sözügedən Qarabağ klanına qayıdır. Şərin kökünü məhz orada axtarın. Əgər kommunikasiyalar açılarsa, onda region müsbət işarəsi ilə ciddi şəkildə dəyişəcək. Ancaq kimlər ki, bağlı sərhədlər hesabına qidalanırlarsa, onlar pullarını və təsirlərini itirəcəklər. Axı açılacaq kommunikasiyalar Ermənistana necə zərər vura bilər? Bu, absurddur. Dünyada elə bir ölkə yoxdur ki, tranzit kommunikasiyaları və nəqliyyat daşınmaları ona manеə törətsin. Ermənistan onsuz da Türkiyə ilə əlaqəlidir, sadəcə, ticarət dövriyyəsi Gürcüstan üzərindən gedir, bu isə yüzlərlə əlavə kilometrlər, itirilən vaxt, məhsulun bahalanması deməkdir".

"Sizdə dəqiq mövqe var və siz həmin mövqeni ilk dəfə deyil ki, səsləndirirsiniz və belə mövqe göründüyü kimi Ermənistanda bir çoxlarının xoşuna getmir. Bu sizi qorxutmurmu?", sualını cavablandıran İşxan Verdyan deyib: "Mən bilirdim ki, hansı işə girişirəm və istənilən hücumlara hazıram. Lakin hər zaman necə yaşamışamsa, elə də yaşamağa çalışıram. Bəli, mən daha ehtiyatlı və diqqətli olmağa başlamışam. Ancaq bu mövzu ilə bağlı üzrxahlıq sayın, danışmaq istəmirəm".

***Rövşən Rəsulov***

## Azərbaycanda xüsusi karantin rejimi uzadıldı



Nazirlər Kabineti Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə Qərar verib. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya bildirilib ki, Qərarda deyilir: "Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2021-ci il 1 iyun saat 06:00-dək uzadılsın". Qərara əsasən aprel və may aylarında ictimai nəqliyyatın hərəkəti aşağıdakı qaydada tənzimlənəcək:

2021-ci il 3 aprel saat 00:00-dan 5 aprel saat 06:00-dək;
10 aprel saat 00:00-dan 12 aprel saat 06:00-dək;
17 aprel saat 00:00-dan 19 aprel saat 06:00-dək;
24 aprel saat 00:00-dan 26 aprel saat 06:00-dək;
1 may saat 00:00-dan 3 may saat 06:00-dək;
8 may saat 00:00-dan 10 may saat 06:00-dək;
15 may saat 00:00-dan 17 may saat 06:00-dək;
22 may saat 00:00-dan 24 may saat 06:00-dək;
29 may saat 00:00-dan 31 may saat 06:00-dək Azərbaycan Respublikası ərazisində ictimai nəqliyyatın hərəkəti dayandırılır.

## Erməni əsgər anaları: Övladlarımızı Qarabağdan çıxarın



Hazırda Azərbaycanın Qarabağ bölgəsində hərbi xidmətini davam etdirən Ermənistan vətəndaşı olan əsgərlərin valideynləri İrəvanda hökumət binasının qarşısında aksiya keçirirlər. "İki sahil" erməni mediasına istinadla xəbər verir ki, valideynlər Ermənistan rəhbərliyindən övladlarının məcburi hərbi xidmətinin vaxtından əvvəl yekunlaşdırılması və Qarabağdan çıxarılmasını tələb edirlər. Ermənistan baş naziri Nikol Paşinyan artıq iki etirazçını qəbul edib. "Tələblərimizi ötən ilin noyabrında da təqdim etmişdik. Amma onları nəzərə alan yoxdur. Övladlarımızın bu yaxınlara qədər müharibənin olduğu yerdə xidmət etməyə davam etməsi ən azından haqsızlıqdır"- deyə aksiya iştirakşılarından Tereza Qriqoryan jurnalistlərə deyib.

Tereza Qriqoryan deyib ki, Qarabağda xidmət keçən oğullarının tezliklə tibbi yardım göstərilməklə ordudan tərxis olunmasını tələb edirlər. Müharibəni görən uşaqlar, xüsusən də mövcud şəraitdə xidmətə davam etmək iqtidarında deyillər. Etiraz aksiyasının iştirakçısı xatırladıb ki, əsgər valideynləri bu məsələni Paşinyanla görüşlərdə artıq iki dəfə qaldırıblar. Onun sözlərinə görə, baş nazir döyüşlərdə iştirak edən hərbi qulluqçuların xidmət müddətinin azaldılması məsələsinin hökumətin gündəmində olduğunu qeyd edib. Qadının sözlərinə görə, bəzi hərbi hissələr elektrik və su yalnız indi verilməyə başlanıb.

# Humanizm siyasətinin növbəti parlaq nümunəsi

## *Prezident İlham Əliyev tərəfindən imzalanan əfv sərəncamı Novruz bayramı ərəfəsində xalqa böyük hədiyyədir*

***Dövlət başçısı ənənəvi olaraq, bayram günləri, bir sıra əlamətdar tarixlər öncəsi imzaladığı əfv sərəncamları ilə xeyli sayda insanı azadlığa qovuşdurur. Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" imzaladığı növbəti Sərəncamda məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, insan hüquqlarının müdafiəsi təşkilatlarının Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların şəxsiyyətini, səhhətini, ailə vəziyyətini, törətdikləri cinayətlərin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, cəza çəkdikləri müddəti və həmin müddətdə davranışlarını nəzərə alaraq, humanizm prinsiplərinə əsaslandığı qeyd edilib. Sərəncama əsasən, azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş 475 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib. Bundan başqa, azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 98 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb.***
















Ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş üç nəfərin cəzası 25 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəzlənib.

Eləcə də azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş iki nəfər cəzadan azad ediliblər. Həmçinin azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş və cəzasının çəkilməsi təxirə salınmış üç nəfər cəzadan azad olunublar.

Azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 9 nəfər və islah işləri cəzasına məhkum olunmuş 12 nəfər cəzanın çəkilməmiş hissəsindən, cərimə cəzasına məhkum olunan 23 nəfər isə cəzadan azad ediliblər. Ümumiyyətlə, əfv edilənlərin ümumi sayı 622 nəfərdir.

Beləliklə, yüzlərlə ailə Novruz bayramını daha böyük sevinclə, gülər üzlə keçirəcək. Yüzlərlə insan bayram ərəfəsində doğmalarına, qohumlarına qovuşacaqlar. Bu, Azərbaycan dövlətinin və onun başçısının artıq illərdir davam etdirdiyi humanizm siyasətinin növbəti təzahürüdür.

Dövlət başçısının humanizmin və insansevəriyin əsas prinsip olması rəqəmlər və faktlarla

Prezident İlham Əliyevin fəaliyyətində humanizmin və insansevərliyin əsas prinsip olmasını rəqəmlər və faktdan o da təsdiqləyirlər. Bu gün imzalanan Sərəncam 2003-cü ildən bəri dövlət başçımızın imzaladığı sayca 33-cü əfv sənədidir. Ümumilikdə 16 il ərzində imzalanan fərman və sərəncamlarla 4.500-dən çox şəxs azadlığa buraxılmaqla, 5 minə yaxın məhkum əfv edilib. Və təsadüfi deyil ki, əfv sənədləri adətən bayramlar ərəfəsində imzalanır. Bununla dövlət başçısı yüzlərlə insana dünyada ən qiymətli neməti - azadlığı hədiyyə edir. Bir faktı qeyd etmək istərdik. Belə ki, ötən il də mayın 24-də, Cümhuriyyətin 100 illiyi münasibətilə 634 şəxs əfv olundu. Göstərilən rəqəmlər onu bir daha təsdiqləyir ki, imzalanan əfv fərmanı ölkənin siyasi-ictimai həyatında mühüm hadisə kimi qiymətlənir. Çünki bu humanizm və insanpərvərlik siyasətinin kökləri Ulu Öndər Heydər Əliyevin atdığı addımlardan qaynaqlanır. Belə ki, Ulu Öndər ölkə rəhbərliyinə qayıdandan sonra, 1995-ci ildə əfv və amnistiya praktikasını bərpa etdi və hakimiyyətdə olduğu dövrdə ümumilikdə 65 fərman və sərəncamla 8 minə yaxın şəxs əfv olundu.

1995-ci ildən başlayaraq, bu günə qədər qəbul edilmiş 11 amnistiya aktı ümumilikdə 117.000-ə yaxın şəxsi əhatə edib ki, onlardan da 30.000-i azadlığa buraxılıb. Qanlanların cəzaları müxtəlif formalarda yüngülləşdirilib. Bu amnistiya aktlarından sonuncu 4-ü - yəni 2007, 2009, 2013 və 2016-cı illərdə baş tutan amnistiyalar Heydər Əliyev Fondunun Prezidenti, xanım Mehriban Əliyevanın təşəbbüsləri olub. 2016-cı ilin amnistiyası 10.000-dən çox məhkumu əhatə etmiş, 3.000-ə yaxın şəxs penitensiar müəssisələrdən buraxılıbdır.

Bu günə kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul edilmiş amnistiya aktları nəticəsində 40 mindən çox Azərbaycan vətəndaşı əfv edilib.

Prezident İlham Əliyevin bu sərəncamı bir daha göstərdi ki, Azərbaycanda həyata keçirilən dövlət siyasəti daim humanizm prinsiplərinə əsaslanır. Göstərilən bu faktlar bir daha onu təsdiqləyir ki, humanizm Azərbaycan iqtidarı üçün prioritet dəyərlərdən biridir. Həm də məhz bu səbəbdən cəzaların yüngülləşdirilməsi, alternativ cəza növlərinin tətbiqi istiqamətində fəal iş aparılır. Çünki dövlətin məqsədi əsla vətəndaşını cəzalandırmaq deyil. Dövlətin məqsədi vətəndaşı islah etmək, qanunsuz əməllərdən uzaqlaşdırmaqdır. Çünki Azərbaycan Prezident beynəlxalq təşkilatların tələblərindən çox, Azərbaycan vətəndaşının mənafeyini daha üstün tutur. Və imzaladığı Sərəncamı ilə ailələrə ikiqat sevinc bəxş edən dövlətimizin başçısının növbəti humanist addımı bir daha göstərir ki, ölkəmizdə insan amilinə diqqət dövlət siyasətinin əsas parametrlərindəndir. "Biz qanunun aliliyinin təmin olunduğu, yüksək səviyyədə şəffaflıq olan, hər bir insanın sülh və əmin-amanlıq şəraitində yaşadığı və bütün azadlıqlardan istifadə etdiyi cəmiyyət qururuq" deyən dövlətimizin başçısı İlham Əliyev eyni zamanda diqqətə çatdırır ki, iqtisadi artım, cəmiyyətin demokratikləşməsi siyasətimizin əsas elementləridir və biri digərsiz mümkün ola bilməz: "İqtisadi cəhətdən güclü ola bilərsən, amma demokratiya yoxdursa, şəffaflıq yoxdursa, insan hüquqları qorunmursa, uğur qazana bilməzsən".

Bu Sərəncam Azərbaycanda əfvin humanist və hüquqi institut kimi təkmilləşməkdə olduğunun göstəricisidir

Prezident İlham Əliyev tərəfindən imzalanan əfv Sərəncamı vətəndaşlara verilən dəyərin, dövlətin humanist siyasətinin daha bir bariz nümunəsidir. Sərəncam, eyni zamanda, Azərbaycanda əfvin humanist və hüquqi institut kimi təkmilləşməkdə olduğunu göstərdi. Xalqımızın milli dəyərlərindən biri də odur ki, insanlar əfv olunsun, həmrəylik nümayiş olunsun. Bu Sərəncam humanizm siyasətinin əyani sübutudur. Bu, bir daha onu sübut edir ki, Azərbaycan xalqının öz Prezidentinə inamı sarsılmazdır və bu inamı heç kim sarsıda bilməz.

Kimliyindən, tutduğu mövqedən asılı olmayaraq hər bir vətəndaşın dərdi-səri, qayğıları, problemləri Azərbaycan Prezidenti İlham Əliyevin diqqətində və nəzarətindədir. Novruz bayramı ərəfəsində imzalanan əvf sərəncamı da Azərbaycan Prezidentinin siyasi iradəsinin və qətiyyətinin, bir sözlə dövlətin öz vətəndaşlarına humanist münasibətinin bariz nümunəsidir.

**RƏFİQƏ KAMALQIZI**

# Vüqar Rəhimzadə: “ABŞ Azərbaycanı güclü ölkə kimi qiymətləndirir”



***“Böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı maraq və hörmət prinsipi əsasında əlaqələr quran Azərbaycan Qərb ölkələri ilə əməkdaşlığa xüsusi önəm verir, münasibətlərin yeni prioritetlər əsasında inkişafına maraq göstərir. Bu baxımdan Azərbaycan-ABŞ münasibətləri xüsusi qeyd edilməlidir. ABŞ Prezidenti Co Baydenin Novruz bayramı münasibətilə dövlətimizin başçısı İlham Əliyevə təbrik məktubunda əksini tapan fikirlər iki ölkə arasında əlaqələrin bugünkü səviyyəsinə və perspektivlərə işıq salır. Məktubda da qeyd olunduğu kimi, bu yenilənmə çağı əməkdaşlığımızın və sülhə sadiqliyimizin bir daha vurğulanması üçün fürsətdir”. Bu fikirləri SİA-ya “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə deyib.***

V.Rəhimzadə qeyd edib ki, regional inkişafın aparıcı qüvvəsi, dünyanın enerji təhlükəsizliyinin təminatında mühüm rolu olan Azərbaycan daim beynəlxalq aləmin diqqətində olub: “Dövlətimizin başçısı İlham Əliyev Azərbaycanın iqtisadi və siyasi həyatında yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilən, bugünkü reallıqlara yol açan, ulu öndər Heydər Əliyevin müəllifi olduğu “Əsrin müqaviləsi”nin imzalanmasına və icrasına ABŞ-ın dəstəyini daim yüksək dəyərləndirir. Regional çərçivəni aşan əməkdaşlığın coğrafiyasının genişlənməsi Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi artan nüfuzunun göstəricisidir. Artıq çoxtərəfli əməkdaşlığın başlanğıcı olan Cənub Qaz Dəhlizinin icrası uğurla başa çatıb. ABŞ Administrasiyası aydın görür ki, güclü və inkişaf edən Azərbaycan həm də Cənubi Qafqaz-Xəzər dənizi regionunda sülhün və sabitliyin, Avropanın enerji təhlükəsizliyinin təminatında önəmli rol oynayan enerji layihələrinin reallaşdırılması və dayanıqlılığının təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın liderliyi ilə həyata keçirilmiş Cənub Qaz Dəhlizi layihəsi Avropanın enerji təhlükəsizliyinə, enerji mənbələrinin şaxələndirilməsinə və bütün iştirakçı tərəflərə fayda gətirən layihədir. ABŞ Prezidenti təbrik məktubunda bu məqamı xüsusi qeyd edir ki, iqtisadiyyatınızın şaxələndirilməsi və Xəzər dənizində enerji imkanlarının inkişafı ilə bağlı səylərinizi dəstəkləyirik. Eyni zamanda, məktubda bu fikir də əksini tapır ki, Amerika Birləşmiş Ştatları Azərbaycanla iqtisadi əməkdaşlıq üçün yeni imkanları nəzərdən keçirmək arzusundadır”.

Baş redaktor bildirib ki, ABŞ-Azərbaycan münasibətlərinin inkişafında əhəmiyyətli rol oynayan addımlardan biri də 2001-ci ildə Birləşmiş Ştatlarda törədilən terror aktından sonra bu supergücün xarici siyasətində baş verən dəyişikliklər əsasında 1992-ci ildə Azərbaycana qarşı tətbiq edilən “Azadlığı Müdafiə Aktı”na 907-ci düzəlişin ədalətsizliyinin etirafı və fəaliyyətinin birillik dondurulması barədə qərarın qəbul edilməsidir: “Baxmayaraq ki, 2001-ci ildən ötən 20 ildə onun birdəfəlik ləğvi müşkülə çevrilib, amma hər il qərarın icrasının dondurulması ilə bağlı qəbul olunan qərar yenidən təsdiqlənir. Məlum olduğu kimi, ABŞ ermənilərin və erməni diasporunun daha güclü olduğu ölkələr sırasındandır. Şübhəsiz, ABŞ Konqresinin belə bir əsassız qərarı qəbul etməsində də erməni diasporunun rolu az olmamışdır. Lakin bugünümüzün reallıqları tamamilə başqa bir mənzərəni təqdim edir. Azərbaycan dünyanın yeni xarici siyasətinin müzakirə edilməsi üçün ideal məkan kimi qəbul olunur. Bu, dövlətimizin düşünülmüş və məqsədyönlü, eyni zamanda, beynəlxalq hüquqa əsaslanan xarici siyasətinin açıq və çoxşaxəli olmasından irəli gəlir”.

V.Rəhimzadə diqqəti Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı Zəfərə yönəldərək bildirib ki, rəsmi Bakı daim münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun həmsədri kimi ABŞ-ın mövqeyinə önəm verib: “30 ilə yaxın müddətdə Minsk qrupunun həmsədrlərinin Ermənistana dəstək funksiyasını yerinə yetirmələri, mandatlarının tələblərinin əksinə olaraq neytrallığı qorumamaları münaqişənin həlli prosesinin uzanmasına və sonda Azərbaycan xalqının səbir kasasının dolmasına səbəb oldu. Dövlətimizin başçısı İlham Əliyevin qətiyyətli mövqeyi nəticəsində münaqişə həllini tapdı, ərazi bütövlüyümüz bərpa olundu, ölkəmizin həyatında yeni dövr başladı. Amerika Prezidenti məktubunda “Mənim administrasiyam təhlükəsizliklə bağlı ümumi narahatlıqlar və regional barışıq məsələlərinin həlli istiqamətində Azərbaycanla birgə çalışacaqdır” fikirləri ilə ABŞ-Azərbaycan münasibətlərində yeni mərhələnin başlandığına işarə edir”.

“Ümumilikdə Prezident Co Baydenin təbrik məktubu ABŞ-ın yeni Adminstrasiyasının Azərbaycanla əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün Prezident İlham Əliyevlə bundan sonra da birgə çalışmaqda maraqlı olduğunu, Amerika-Azərbaycan əlaqələrinin strateji əhəmiyyət kəsb edən münasibətlər səviyyəsinə yüksəldiyini, dostluq və tərəfdaşlıq xarakteri daşıdığını göstərir” söyləyən V.Rəhimzadə qeyd edib ki, Azərbaycanın İkinci Qarabağ müharibəsində tarixi Qələbəsi regionda və dünyada yeni reallıqlar yaradıb: “ABŞ yeni reallığı görür və bu reallıqlar çərçivəsində Ermənistan və Azərbaycan arasında barışığın təşviq olunmasına çalışacağını bəyan edir. Azərbaycanla ABŞ regional təhlükəsizlik məsələləri üzrə tərəfdaşdırlar. ABŞ Azərbaycanı güclü, dinamik inkişaf edən, sabitliyə və təhlükəsizliyə mühüm töhfə verən, qlobal müstəvidə önəmli təşəbbüslərlə çıxış edən və qarşıya çıxan problemlərin həllinə əməli dəstək verən ölkə kimi qiymətləndirir. Ölkəmiz sabitləşdirici faktor kimi mövqeyini möhkəmləndirir. COVID-19 pandemiyasına qarşı mübarizədə bir-birinə əks qütbləri bir araya gətirən Azərbaycan qlobal problemlərin həllində qlobal birlik, həmrəylik çağırışını etdi. Dövlətimizin başçısı İlham Əliyev prioritetləri açıqlayarkən xarici siyasətdə dəyişiklik olmayacağını bildirməklə bir daha Azərbaycanın dəyişməz, beynəlxalq hüquqa əsaslanan mövqeyini dünyaya çatdırır. Dövlətin, xalqının gələcəyini düşünən, daim irəliyə baxan, ikitərəfli və çoxtərəfli münasibətlərdə ədalət prinsipini qoruyan, ən əsası siyasətində müstəqil olan Liderə nəinki ölkəsi daxilində, beynəlxalq miqyasda inam və etimad böyük olacaq. Birləşmiş Ştatlar Prezidentinin ABŞ-Azərbaycan münasibətlərində yeni mərhələyə yol açan məktubunda əksini tapan fikirlər də dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan, qalib ölkənin qalib Lideri İlham Əliyevə olan yüksək münasibətinin aydın ifadəsidir”.

*Ceyhun Rasimoğlu*

# SƏS Media Qrupunun rəhbəri kollektivi təbrik etdi



Dünən özündə 3 qurumu - “Səs” qəzeti, Səs İnformasiya Agentliyini və Səs İnternet Televiziyasını birləşdirən SƏS Media Qrupun redaksiyasında müqəddəs Novruz bayramı münasibətilə tədbir keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə çıxış edən Media Qrupun rəhbəri Bəhruz Quliyev təmsil etdiyi qurum adından dövlət başçısı cənab İlham Əliyevi və ailəsini, eyni zamanda bütün Azərbaycan xalqını ürəkdən təbrik edib, firavanlıq, bol ruzi-bərəkət, gələcək işlərində yeni nailiyyətlər arzulayıb.

B.Quliyev Media Qrupun hər bir üzvünü Novruz bayramı münasibətilə təbrik edib. Ötən 2020-cu ilin xalqımız, dövlətimiz üçün bir sıra uğurlarla yadda qaldığını və 2021-ci ildə bu uğurların davamlı olacağına ümid etdiyini bildirib. Sonra bayram tortu kəsilib. SİA olaraq biz də bütün Azərbaycan xalqını müqəddəs Novruz bayramı münasibətilə təbrik edir, bol ruzi-bərəkət dolu süfrə, can sağlığı arzulayırıq!

***BAYRAMINIZ MÜBARƏK!!!***

# Daha 5 siyasi partiya ofis sahəsi ilə təmin olunub




Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasi-iqtisadi islahatlar nəticəsində partiyalarla sağlam dialoq mühiti, siyasi plüralizm ənənələri formalaşır. Ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların böyük əksəriyyəti iqtidar-müxalifət dialoqunun fəal iştirakçılarıdır.

Dövlət başçısının tapşırıqlarına uyğun olaraq, fəaliyyət imkanlarının genişləndirilməsi, iş şəraitinin yaxşılaşdırılması məqsədilə siyasi partiyaların dövlət mülkiyyətində olan qeyri-yaşayış sahələri ilə təminatı prosesi davam etdirilir.

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, martın 19-da nazirlik yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən daha 5 siyasi partiyaya fəaliyyət göstərməlari üçün ofis sahəsi təqdim edilib.

Müstəqil Xalq Partiyası, Azərbaycan Azad Demokratlar Partiyası, Aydınlar Partiyası, Vəhdət Partiyası və Gələcək Azərbaycan Partiyasıın nümayəndələri fəaliyyət göstərəcəkləri ofislərlə tanış olublar.

# Bayram günlərində “ASAN xidmət” və “ASAN Kommunal” işləməyəcək



20-28 mart tarixində Novruz bayramı ilə əlaqədar “ASAN xidmət” və “ASAN Kommunal” mərkəzlərində qeyri-iş günü olacaq. “ASAN xidmət”dən SİA-ya verilən məlumata görə, 29 mart tarixindən etibarən isə mərkəzlərə müraciət etməklə müvafiq xidmətlərdən yararlanmaq mümkündür.

# Azərbaycanda daha 879 nəfər COVID-19-a yoluxub

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 879 yeni yoluxma faktı qeydə alınıb, 334 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 11 nəfər vəfat edib.



# Ənənəvi təhsilin qiymətinə məsafədən təhsil: Xərclər azalsa da, qiymət dəyişmir

*Ekspert: Dünya təcrübəsinə görə, məsafədən təşkil edilən təhsil ilə ənənəvi təhsil arasında ən azı 50 faiz qiymət fərqi var. Azərbaycanda da ali təhsil müəssisələri təhsil haqlarını azı 30-40 faiz azaltmalı idilər*

***Bir ildir ki, ölkədə ali təhsili müəssisələrində təhsilalma pandemiya səbəbindən distant (məsafədən) formada aparılır. Lakin təhsil haqları ənənəvi forma üçün müəyyən edilmiş olaraq qalmaqdadır. Başqa sözlə, əyani təhsil üçün ali təhsil müəssisələri ilə müqavilə bağlamış tələbələr pandemiya səbəbindən məsafədən təhsilə keçməyə məcbur olsalar da, onlardan əyani təhsil üçün müəyyən edilmiş haqq tələb edilir.***



Təhsilalma formasının dəyişdiyi halda, təhsil haqlarına da yenidən baxılmalıdırmı?

Məsələ ilə bağlı "İki sahil"ə danışan təhsil məsələləri üzrə ekspert Kamran Əsədov hesab edir ki, bir ildir ki, pandemiya səbəbindən ali təhsil müəssisələrinin təhsilvermə prosesində maddi resurslardan istifadə etməməsi xərclərin azalmasına gətirib çıxardığından təhsil haqlarında da dəyişiklik edilməli idi:

"2020-ci ilin mart ayının 3-dən etibarən ölkədə ali və orta təhsil müəssisələrində təhsilalma forması pandemiya səbəbindən məcburi olaraq dəyişdi. Təbii ki, bu dəyişkənlik xərclərə də birbaşa təsirini göstərdi. Belə ki, əgər indiyədək 51 ali təhsil müəssisəsində təhsil alan 182 min tələbə təhsil müəssisələrinə gedir və bu zaman ali təhsil müəssisələri su, elektrik enerjisi, istilik, cari təmir işləri və digər istiqamətlədə vəsait sərf edirdi. Etiraf edək ki, bir ildir ki, ali təhsil müəssisələri qeyd etdiyim xərcləri çəkmir. Xərclər azaldığına görə təhsil haqlarında da dəyişiklik edilməli idi. Əlbəttə hər bir şəxsin təhsil haqqının xərclər müqabilində formalaşdığını düşünsək, birmənalı şəkildə burada qiymət aşağı enməli idi. Çünki burada təhsil müəssisələri bu müddət ərzində tələbəyə hər hansı bir xərc çəkməyiblər".

Ekspert deyir ki, hazırda ali təhsil müəssisələrinin yeganə xərci müəllimlərin əmək haqlarına ayrılan vəsaitdir. Digər tərəfdən, pandemiya dövründə əhalinin gəlirləri azaldığından, bu, ödəmə qabiliyyətlərinə də təsirsiz ötüşməyib:

"İndi dərslər məsafədən keçirilir və təsəvvür edin ki, universitetin müəllimi evindən və şəxsi vəsaiti hesabına əldə etdiyi internet və kompüter ilə dərs keçir. Tələbə də, həmçinin eyni şərtlə dərsə qoşulur. Ali təhsil müəssisəsinin heç bir məkan və kommunal resursundan istifadə edilmədiyindən hazırda xərc yalnız müəllimlərin əmək haqlarına ayrılan vəsaitdir. Bunun müqabilində təhsil haqları aşağı enməli idi. İlk növbədə pandemiya dövründə əhalinin gəlirləri azaldığından ödəmə qabiliyyətləri də azalıb. İkincisi burada vacib nüans ədalət prinsipidir".

K. Əsədov pandemiya dövründə digər ölkələrdə təhsil haqlarının endirildiyini qeyd edib: "Məsələn, Türkiyədə və dünyanın bir çox ölkələrində ali təhsil müəssisələri ödədikləri vergi və digər icbari ödənişlərdən azad edilib və onlardan tələb edilib ki, tələbələrdən alınan təhsil haqları aşağı salınsın. Həqiqətən də qardaş ölkədə təhsil haqları 30-35 faizədək azalıb".

Təhsil haqları müəyyənləşdirilərkən xərclər nəzərə alınmadığını vurğulayan ekspert bu gün Azərbaycanın demək olar ki, 51 ali təhsil müəssisəsində ödənişli xidmətin müqabilində tələbələrə internet dəstəyi və ondan istifadə aləti (kompüter və ya planşet) verilmədiyini, hazırkı reallıqda təhsil haqlarının həqiqəti əks etdirmədiyini deyir:

"Nəticədə ali təhsil müəssisələri heç bir xərc çəkmədən məsafədən bu prosesi təşkil etməklə təhsil haqqı müəyyən edirlər. Bu reallıq deyil və hesab edirəm ki, mütləq şəkildə tədrisin üsulu və vasitələri dəyişdiyinə görə təhsil haqları da aşağı enməlidir. Dünya təcrübəsinə görə, məsafədən təşkil edilən təhsil ilə ənənəvi təhsil arasında ən azı 50 faiz qiymət fərqi var. Azərbaycanda da ali təhsil müəssisələri təhsil haqlarını azı 30-40 faiz azaltmalı idilər. Ən azından bu insanların ödəmə qabiliyyətləri aşağı düşüb. Biz baxırıq ki, mövcud vəziyyətdə insanlar təhsil haqlarını ödəyə bilmirlər. Hazırkı reallıqda müəyyən olunmuş təhsil haqları həqiqəti əks etdirmir".

Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini Nadir İsrafilov isə bu fikirdədir ki, təhsil haqlarının aşağı salınması universitetlərin səlahiyyəti daxilində olan məsələdir. N. İsrafilov "İki sahil"ə deyib ki, lakin buna axmayaraq ki, tələbələrə güzəşt edilməsi ilə əlaqədar universitetlərə tövsiyə edilib. Onun sözlərinə görə, bir çox universitetlər tələbələrə 30 faiz civarında güzəştlər edib.

## Yaponiyanın "Fujitomi" YouTube kanalında Azərbaycan haqqında veriliş yayımlanıb




Yaponiyanın "Fujitomi" YouTube kanalında Azərbaycanın uğurlarından bəhs edən növbəti veriliş yayımlanıb. AZƏRTAC xəbər verir ki, verilişin aparıcısı "Sərhədləri aşanlar 3.0" şirkətinin baş meneceri Kazuyasu İşida məşhur yapon futbolçu, Yaponiya yığmasının üzvü Keysuke Hondanın Bakının "Neftçi" klubuna transferindən sonra bu ölkədə Azərbaycana böyük marağın yarandığını bildirib. Azərbaycan ilə Yaponiya arasında müxtəlif sahələrdə münasibətlərin inkişafı ilə yanaşı idman sahəsində əməkdaşlığın getdikcə genişlənməsindən bəhs edib. Qeyd edib ki, ötən əsrin 90-cı illərində müstəqilliyini bərpa edən Azərbaycan ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə böyük uğurlara imza atıb. Ulu Öndərin müəyyən etdiyi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən yaradıcı şəkildə uğurla həyata keçirilməsi Azərbaycanı yalnız regionun deyil, həm də bütün dünyanın nüfuzlu dövlətlərindən birinə çevirib. Uğurla həyata keçirilən qlobal enerji və nəqliyyat-kommunikasiya layihələri Azərbaycanın dünyanın aparıcı ölkələri ilə bərabər səviyyəli, qarşılıqlı hörmətə əsaslanan münasibətlər qurmasına təkan verib.

Verilişdə Azərbaycan ilə Yaponiya arasında dostluq münasibətlərinin sürətlə inkişaf etdiyi, siyasi, iqtisadi, mədəni, təhsil və idman sahəsində əməkdaşlığa uğurlar əldə edildiyi qeyd olunub. Yaponiya şirkətlərinin Bakı Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, ötən ilin dekabrında istifadəyə verilmiş TAP boru kəməri xəttində iştirakı barədə ətraflı bəhs edilib.

Azərbaycanın artıq bütün dünyada yalnız iqtisadi cəhətdən inkişaf etmiş dövlət deyil, həm də mühüm idman və bədən tərbiyəsi ölkəsi kimi tanındığı, ilk Avropa Oyunlarının məhz Bakıda təşkil olunduğu, Formula 1 Azərbaycan Qran-Prisinin yapon tamaşaçılar tərəfindən də böyük diqqət və maraqla izlənildiyi verilişdə xüsusi vurğulanıb.

Qeyd edilib ki, Yaponiyada xüsusi məhəbbətlə sevilən Keysuke Hondanın "Neftçi" futbol klubuna transferi iki ölkə arasında yalnız idman sahəsində deyil, eyni zamanda, digər sahələrdə də əməkdaşlığın inkişafına mühüm təsir göstərəcək.

Məlumat üçün qeyd edək ki, "Fujitomi" kanalı eyniadlı maliyyə şirkətinə məxsusdur və xarici ölkələrin iqtisadiyyatına maraq göstərən tamaşaçılar tərəfindən izlənilir. Yaponiya maliyyə sənayesinin Azərbaycana böyük marağı nəzərə alınaraq bu kanalda ölkəmiz haqqında müntəzəm verilişlər hazırlanır.

## Mövlud Çavuşoğlu ilə NATO-nun Baş katibi arasında telefon danışığı olub



Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə NATO-nun Baş katibi Yens Stoltenberq arasında telefon danışığı olub. AZƏRTAC Türkiyə Xarici İşlər Nazirliyinə istinadla xəbər verir ki, telefon söhbətində NATO-ya üzv ölkələrin xarici işlər nazirlərinin nəzərdə tutulan görüşü, eləcə də Liviya problemi də daxil olmaqla gündəlikdə duran bir sıra məsələlər ətrafında müzakirələr aparılıb.

## Erməni iqtisadçı: "Rusiya qazı bahalaşdırsa, böhran daha da dərinləşəcək"



"15 mart 2021-ci ildə Nikol Paşinyan Rusiya Federasiyasına nümayəndə heyəti göndərilməsi ilə bağlı qərar imzalayıb. Qərarda nümayəndə heyətinin işgüzar səfərinin məqsədi göstərilməsə də, müddəti (16-18 mart 2021-ci il) hazırkı hakimiyyətin Rusiya ilə qazın qiyməti barədə danışıqlar apardığını göstərir". "İki sahil" Ermənistan mətbuatına istinadən xəbər verir ki, bu barədə iqtisadçı Suren Parsyan "Facebook" hesabında yazıb.

İqtisadçı xatırladıb ki, Rusiyanın Ermənistana qaz təchizatı müqaviləsinin müddəti 31 martda başa çatır. Yeni bir razılaşma olmadığı təqdirdə Rusiya tərəfi qazın min kubmetrini indiki 165 dollardan daha yüksək qiymətə təklif edə bilər. Hərçənd ki, Rusiya Moldova və Belarusiyaya qazı 120-127 dollar və ya Ermənistandan təxminən 30 faiz ucuz satır.

"Mövcud hakimiyyətin təbii qaz və elektrik enerjisi tariflərinin endirilməsi ilə bağlı seçkiqabağı vədlərini bir kənara qoyaraq qeyd etmək lazımdır ki, qeyri-əhali qrupu üzrə təbii qaz tarifinin 19 iyul 2020-ci ildən etibarən 6 faiz, elektrik enerjisi tarifinin isə 1 fevral 2021-ci ildən etibarən 8 faiz artıb. Nəticədə, indiyədək olan ən yüksək inflyasiya göstəricisinə sahibik. Qaz danışıqlarına bir çox iqtisadi və siyasi amillərin təsir etdiyi heç kimə sirr deyil. Bununla birlikdə, bu dəfə səlahiyyətlilərimizin danışıqlara daha yaxşı hazır olduqlarına ümid etməliyik ki, bu da qazın qiymətini endirməyə imkan verəcəkdir. Əks təqdirdə, enerji qiymətlərinin artması şəraitində iqtisadiyyatımız rəqabət qabiliyyətini itirməyə davam edəcək və böhran daha da dərinləşəcək", - deyə Parsyan yazıb.

# Dünyada ən yüksək və ən aşağı faiz dərəcəsi hansı ölkələrdədir?

***Dünən Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti faiz dəhlizi parametrlərinin dəyişməz saxlanılması haqda qərar qəbul edib. Uçot dərəcəsi 6,25 faiz, dəhlizin aşağı həddi 5,75 faiz, yuxarı həddi isə 6,75 faiz səviyyəsində saxlanılıb.***

Qərarda deyilir ki, ötən toplantıdan bəri ticarət tərəfdaşı olan ölkələrin maliyyə bazarlarında vəziyyət stabil olub. Bu ölkələrin əksəriyyətində pul siyasətinin yumşaldılması dayandırılıb. Yeri gəlmişkən, Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olan Türkiyənin Mərkəzi Bankı dünən lirənin faiz dərəcəsini 2 bənd artıraraq 17 faizdən 19 faizə yüksəldilməsi barədə qərar qəbul edib.

Uçot dərəcəsi (yenidən maliyyələşmə dərəcəsi) Mərkəzi Bankın ölkənin digər bankları pul kütləsi ilə təmin edərkən tətbiq etdiyi faiz dərəcəsidir. Sadə dillə desək, Mərkəzi Bank kommersiya banklarına və digər maliyyə təşkilatlarına uçot dərəcəsinə uyğun kredit verir, onlar isə öz növbəsində həm adi vətəndaşları (fiziki şəxslər), həm də müxtəlif şirkət və təşkilatları (hüquqi şəxslər) kreditlə təmin edir.



Uçot dərəcəsi ölkədəki cari iqtisadi vəziyyət və inflyasiya səviyyəsi nəzərə alınaraq təyin edilir. Əgər inflyasiya səviyyəsi yüksəlirsə, Mərkəzi Bank uçot dərəcəsini yüksəldir və əksinə, inflyasiya səviyyəsi endikcə, uçot dərəcəsi də endirilir. Çünki uçot dərəcəsinin yüksək olması kredit faizlərinin də yüksək olması deməkdir ki, bu da iqtisadi fəallığın artmasına imkan vermir.

Dünyada ən yüksək və ən aşağı faiz dərəcəsi hansı ölkələrdədir?

Bu sahədə dünya birincisi Venesueladır. İqtisadi böhran səbəbindən Venesuelada uçot dərəcəsi 45,34 faizdir. Növbəti yerlərdə 40 faizlə, Zimbabve, 38 faizlə Argentinadadır.

Digər yüksək faiz dərəcəsinə malik ölkələr isə bunlardır:

Yəmən 27 faiz
Liberiya 25 faiz
Surinam 25 faiz
Türkiyə 19 faiz
Konqo 18,5 faiz
İran 18 faiz
Haiti 17 faiz
Anqola 15,5 faiz
Sudan 15,5 faiz
Cənubi Sudan 15 faiz
Qana 14,5 faiz
Syerra Leone 14 faiz
Özbəkistan 14 faiz
Mozambik 13,25 faiz
Malavi 12 faiz
Qvineya 11,5 faiz
Nigeriya 11,5 faiz

Dünyanın 51 ölkəsində isə uçot dərəcəsi 1 faizdən aşağıdır. Bunların 19-u Avrozona ölkələridir. Avropa Mərkəzi Bankının faiz dərəcəsi 0, ABŞ Federal Ehtiyat Sisteminin (FED) faiz dərəcəsi 0-0.25 faiz arasındadır. 3 ölkədə isə uçot faiz dərəcəsi mənfidir. Yaponiyada faiz dərəcəsi -0,1, Danimarkada -0,6, İsveçrədə -0,75-dir.

# Həyəcan təbili: Dünya qidasının üçdə biri israf olunur



***Birləşmiş Millətlər Təşkilatına (BMT) görə dünya qidasının üçdə biri israf olunur. Dünya səviyyəsində israfın həcmi həqiqətən çox böyükdür. Bu gün dünyada istehsal edilən qidanın 30%-i süfrəyə gəlmədən zibilliyə atılır. ABŞ-da hər il istehsal edilən qidaların 40%-i, Avropada isə 100 milyon ton yemək istehlak edilmir. Qida israfı dünyadakı bir çox insan üçün vərdiş halına gəlib. Bunun nəticəsində israf olunmuş qidalar tullantıya çevrilərək, güclü bir istixana qazı olan metanın sərbəst buraxılmasına səbəb olur.***

BMT-yə görə, qida tullantılarının öz ölkəsi olsaydı, ABŞ və Çindən sonra dünyada ən böyük istixana qazı emitenti olardı. Bəs bu gün israf olunan qida ilə bağlı nə edilir?

Yenilikçi təşkilatlar qidanı geri qaytarmaq və ehtiyacı olan insanlara yenidən paylamaq üçün yollar axtarıblar. Bu cür paylanmanı mümkün edən qruplar və təşkilatlar var. Yalnız ABŞ-da 20-dən çox böyük təşkilat var. Market və mağazalarda ehtiyacımızdan daha çox qida almaq, evdə meyvə və tərəvəzləri xarab etmək və ya yeyə bilməyəcəyimizdən daha böyük hissələr götürmək təbii ehtiyatlarımıza planetə və ətraf mühitə əlavə yük verir. Bu səbəbdən hər gün milyonlarla insanın ac qaldığı bir dünyada qida itkisini və israfını azaltmaq çox vacibdir. Yemək tullantıları ilə bağlı nə etmək olar?

Yemək itkisi, israf və israfın qarşısını almaq üçün edə biləcəyiniz 14 asan üsul var:

1. Daha sağlam, davamlı bir pəhriz qəbul edin.

Sağlam yaşamağın açarı ilk növbədə insanın nə dərəcədə sağlam qidalanmasındadır. Gün ərzində yediyimiz qidalar orqanizmin gündəlik ehtiyacı olduğu vitamin və mineralları ödəməlidir. Hər bir şeyin ölçüdən artıq qəbul edilməsi, təbii ki, xoşagəlməz halların yaranmasına səbəb ola bilər.

**2.** Yalnız ehtiyacınız olanları alın.

Yeməklərinizi planlaşdırın. Alış-veriş siyahısı hazırlayın, ona sadiq qalın və qəfil qərar verməyin. Yalnız az yemək sərf etməyəcəksiniz, həm də pula qənaət edəcəksiniz.

**3** Çirkin görünən meyvə və tərəvəzləri seçin.

Yeməyi görünüşünə görə qiymətləndirməyin. Qəribə formalı və ya göyərmiş meyvə və tərəvəzlər təsadüfi kosmetik standartlara cavab vermədiyi üçün tez-tez atılır. Bu cür yetişmiş meyvələrdən şirələr və desertlər üçün "tarixə görə istifadə" ilə "zamana görə istifadə" tarixləri arasında böyük bir fərq var. Bəzən qidanın "ən yaxşısından əvvəl" tarixindən daha çox yemək təhlükəsizdir. Artıq yemək yeməyin təhlükəsiz olmadığını bildirən "istifadə tarixi" tarixidir. Trans yağları və konservantlar kimi zərərli maddələr üçün qida etiketlərini yoxlayın və əlavə şəkər və ya duz olan qidalardan çəkinin.

**4.** Yeməkləri ağılla saxlayın.

Şkafınızın qabağına köhnə məhsulları, arxasına yenilərini qoyun. Soyuducuda qidaların təzə olması üçün hava keçirməyən qablardan istifadə edin.

**5.** Yemək etiketlərini necə oxumağı öyrənin.

"Tarixə görə istifadə" ilə "Zamana görə istifadə" tarixləri arasında böyük bir fərq var. Bəzən qidanın "ən yaxşısından əvvəl" tarixindən daha çox yemək təhlükəsizdir. Artıq yemək yeməyin təhlükəsiz olmadığını bildirən "istifadə tarixi" tarixidir. Trans yağları və konservantlar kimi zərərli maddələr üçün qida etiketlərini yoxlayın və əlavə şəkər və ya duz olan qidalardan çəkinin.

**6.** Həmişə kiçik porsiya ilə başlayın

Evə daha kiçik porsiya götürün və restoranlara getdiyiniz zaman daha çox insan üçün böyük porsiya alaraq paylaşın.

**7.** Yemək qalıqlarına bir şans verin.

Hər şeyi yemirsinizsə, daha sonra dondurun və ya qalıqları başqa bir yeməyin tərkib hissəsi kimi istifadə edin.

**8.** Yemək tullantılarınızı istifadə edin.

Yemək qırıntılarınızı atmaq əvəzinin. Bu şəkildə qidaları torpağa qaytarır və karbon izinizi azaldırsınız.

**9.** Yerli qida istehsalçılarını dəstəkləyin.

Yaşadığınız bölgədə böyüyən məhsullar almaq, həyata keçirə biləcəyiniz ən ekoloji hərəkətlərdən biridir. Yerli məhsullar alaraq cəmiyyətinizdəki ailə fermerlərinə və kiçik müəssisələrə dəstək olacaqsınız. Yük maşınları və digər nəqliyyat vasitələri üçün çatdırılma məsafələrini azaldaraq çirklənməyə qarşı mübarizə aparacaqsınız.

**10.** Mövsümi qidalar yeyin.

Mövsümi qida istehlak etmirsinizsə, mövsümi olmayan qidaya olan tələbat səbəbindən o mövsüm fərqli iqlimi olan ölkələrdən gəlmək və ya daha çox əkinçilik ərazisinə, su istehlakına səbəb olan süni istixanalar qurmaq lazımdır. Bu o deməkdir ki, bu qidalar istehsaldan daşınmaya qədər daha çox karbon izi və sizə çatana qədər daha çox itki yaradır.

**11.** Daha az su istifadə edin

Susuz qida istehsal edə bilmərik. Fermerlərin qida yetişdirmək üçün daha az su istifadə etməsi vacib olsa da, qida tullantılarının azaldılması onu istehsal etmək üçün istifadə olunan bütün su ehtiyatlarına da qənaət edir. Su israfınızı başqa yollarla da azaldın. Dişlərinizi fırçalayarkən suyu bağlamaq və ya daha qənaətli duş başlıqlarından istifadə etmək kimi.

**12.** Torpağı və suyu təmiz saxlayın

Bəzi məişət tullantıları təhlükəlidir və heç vaxt adi bir zibil qutusuna atılmamalıdır. Batareyalar, boyalar, cib telefonları, dərmanlar, kimyəvi maddələr, gübrə, təkərlər, mürəkkəb patronları və s. maddələr torpağımıza və su təchizatımıza sızaraq qidalarımıza,təbii mənbələrə zərər verə bilər. Bu, nəticədə qida itkisinə səbəb olur. Zibilinizi düzgün bir şəkildə ayırın.

13. Daha çox meyvə, tərəvəz yeyin.

Həftədə bir dəfə bol vitaminli buğda və taxıla yeməkləri yeməyə çalışın. Bu növ qida daha uzun davam edir və sizi daha sürətli doyuzdurur.

14. Paylaşma.

Yeyə bilməyəcəyiniz qidaları tullamaq əvəzinə paylaşın.

***Arzu Qurbanlı***

## ADY: Qatarlar bayram günlərində işləməyəcək

Nazirlər Kabinetinin qərarına müvafiq olaraq, Bakı-Pirşağı-Sumqayıt elektrik qatarları 20-28 mart tarixlərində hərəkətdə olmayacaq. Bu barədə "İki sahil"ə "Azərbaycan Dəmir Yolları" QSC-dən bildirilib. Məlumata görə, martın 29-dan etibarən cari cədvəl üzrə hərəkət bərpa olunacaq.



## Toy və ad günü mərasimlərinin keçirilməsi qadağandır



Toy və ad günü mərasimlərinin keçirilməsi qadağandır. Bunu jurnaslitlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkcisi Şahmar Mövüsmov deyib. Prezidentin köməkcisi bildirib ki, hazırkı yoluxma sayı ilə kütləvi tədbirlərin keçirilməsinə icazə verilə bilməz: "Hazırda ad günü keçirmək qadağandır. Əgər kimsə bunu edirsə, o deməkdir ki, qaydaları pozur".

# Diqqətlə oxuyun: Novruzda edəcəyiniz maraqlı fallar

***Novruz bayramında hər evdə səməni cücərdilməlidi və cücərdərkən niyyət tutmaq lazımdır. Əgər səməni göyərərsə, niyyətiniz çin olacaq deməkdir. Novruzda, əsasən də, qızların etdiyi əyləncəli fallar olur. Bu fal ilə nə zaman ailə quracağı və gələcək nişanlısının adı aydınlaşır.***





Stəkan falı - Əvvəlcə 2 stəkan götürülür. Daha sonra stəkanlardan birini seçib arzu tutursunuz. Başqa bir nəfərdə stəkanların ikisindən birinə su tökməlidir. Əgər suyu arzu tutub seçdiyiniz stəkana tökərsə, arzunuz yerinə yetəcək.

Sap falı - Axır çərşənbədə nişanlanmış qızın nişanlısı tərəfindən nə qədər sevildiyini yoxlamaq üçün sapa bir neçə dəfə düyün vurub qıza verirlər ki, açsın. Qız aça bilsə, deməli, oğlan onu çox sevir. Əgər aça bilməsə, deməli, əksinə.

Başmaq falı - Axır çərşənbə axşamı qız ayağının sağ başmağını tutub qapı ağzında başının üstündən atır. Başmağın pəncə hissəsi üzü üstə qapıya tərəf düşsə, deməli, həmin qız bu il nişanlanacaq.

Xeyir-Şər - Ürəyinizdə niyyət tutursuz və naməlum sayda çöpləri düzüb, "xeyir", "şər" sayırsız. Əgər axırıncı çöp "xeyir" olarsa, məqsədinizə çatacaqsız. "Şər" olarsa, ürəyinizdə tutduğunuz arzuya nail ola bilməyəcəksiz.

Alma falı - Axır çərşənbədə alma yeyirlər, gecə isə həmin almanın toxumlarını sayırlar. On ədəd toxum dənəsini yastığın altına qoyub, yatırsınız və yuxuda qismətinizi görürsüz.

Sevgilinin adı - Paltara sap ilişəndə onu şəhadət barmağına dolaya-dolaya əlifba sırası ilə hərfləri sadalayırlar. Hansı hərfdə sap dolanıb qurtarırsa, sevgilinin adı o hərflə başlayacaq.

Yumurta və karandaşlar - Axır çərşənbə günü ağacın altına bir yumurta, iki qara və iki qırmızı karandaş qoyulub arzu tutulur. Səhər həmin yumurtanın üstündə xətt əmələ gəlir. Əgər qırmızı karandaşla xətt çəkilibsə, arzu yerinə yetir, qara ilə çəkilibsə fal alınmır.

Duzlu kökə yemək - Adətə görə axır çərşənbə axşamı gec yatırlar. Yatanda isə əvvəlcədən hazırlanmış duzlu kökə yeyilir və su içilmir. Gecə yuxuda sizə içməyə kimsə su verəcək. İnanclara görə həmin su verən şəxs yuxu görənin qismətidir.

Qapı pusmaq - Axır çərşənbə günü, yaxud həftənin uğurlu günləri axşamçağı qonşuların qapısını sakitcə pusurlar. Qapıya yaxınlaşarkən eşidilən ilk sözü və ya bir neçə sözü yozub, qismət haqqında fərqli fikirlər söyləyirlər. (Bu səbəbdəndir ki, həmin günün axşamı yalnız yaxşı sözlər danışılması adət hesab olunur). Məsələn, ilk eşidilən sözlər "işığı yandır", "yaxşı olacaq" və s. olarsa, hər şeyin yaxşı olacağı güman edilir. Əksinə, "söndü", "viran qalsın" və s. kimi sözlər eşidiləndə pis tərəfə yozulur.

Neçə yaşında gəlin köçəcəksiz? - Axır çərşənbə cavan qızlar bir qaba su tökürlər. Saçlarından tel qoparıb, nişan üzüyünü saçlarına taxırlar. Niyyət tutub, üzüyü suyun üstündən keçirirlər. Üzük fırlanmağa başlayır və qabın divarlarına dəyir. Üzük neçə dəfə dəyirsə, demək, o yaşda gəlin köçəcəksiz.

Başqa bir adətə görə isə, axırıncı çərşənbə axşamı bulaqdan, yaxud çaydan "lal su" gətirilir. Ona ona görə, "lal su"deyirlər ki, bu suyu gətirməyə gedən şəxs su gətirəcəyi qabı əlinə götürəndən ta suyu gətirib evdə, iynə salınacaq qaba tökənəcən dinməməlidir. Həmin su şər qarışandan sonra gətirilir və bu suyu gətirən şəxs bir neçə adam tərəfindən izlənilir.

Suyu qaba tökəndən sonra iki iynənin ulduzlu tərəfinə bir azca pambıq dolayır, birini qız, birini oğlan deyə fikirdə tutur (falı açılan şəxslər) və hərəsini bir tərəfdən ehtiyatla suya qoyurlar. Sonra, həmin iynələrin hərəkəti ilə müəyyən fikirlər söyləyirlər.

Qovuşacaq adamlarda iynələr müxtəlif səmtlərə hərəkət etsələr də, axırda bir-birinə yaxınlaşıb bitişirlər. Əksinə olanda isə iynələr o tərəf-bu tərəfə hərəkət edərək birbirinə qovuşurlar. İynə suyun dibinə çökürsə deməli, su "lal su" deyil. Su gətirən adam üstündə danışıb.

***Ayşən Sadıxzadə***

# "Əfv sərəncamı dövlət başçısının humanizm siyasətinin daha bir nümunəsidir"

***Azərbaycan Prezidenti İlham Əliyev əfv sərəncamı imzalamaqla növbəti dəfə böyük bir humanistlik nümayiş etdirib. Prezident bu xeyirxah addımla on minlərlə vətəndaşı sevindirib, ölkədə ictimai barışı, vətəndaş-dövlət birliyini daha da möhkəmləndirəcək addım atıb. Bunu Azərbaycan Demokratik İslahatların İnkişafı Mərkəzinin (ADİİM) sədri, tanınmış jurnalist Cavid Şahverdiyev bildirib.***



Xatırladaq ki, dünən Prezident İlham Əliyevin Sərəncamı ilə 475 nəfər əfv edilib. Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 98 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb. Ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 3 nəfərin cəzası 25 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilib. Əfv sərəncamı ümumilikdə 625 nəfərə şamil edilib. QHT sədri bildirib ki, Prezident İlham Əliyevin imzaladığı əfv sərəncamı müxtəlif siyasi qütblər və sosial şəbəkələrdə müsbət qarşılanıb, alqışlanıb: "Prezident İlham Əliyevin imzaladığı əfv Sərəncamı dövlət başçısının humanizm siyasətinin, milli vəhdətin daha bir nümunəsidir. Prezident gözü yollarda qalan bir körpəni, bir ananı, bir ailəni, onlarla qohum-əqrabanı sevindirib. Bu da onu deməyə əsas verir ki, Azərbaycan bütün azadlıqların, o cümlədən insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunduğu, demokratik inkişaf yolunda əmin addımlarla irəliləyən ölkədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaşların rifahı və mənafeyi dayanır".

C.Şahverdiyevin fikrincə, Azərbaycan hökumətinin məqsədi öz vətəndaşını cəzalandırmaq deyil, qanunun aliliyini gözləməklə onu etdiyi səhvdən çəkindirməkdir, maarifləndirməkdir. Əgər həbsxanada cəzalarını çəkən vətəndaşlarımız etdikləri səhvlərini başa düşüblərsə, dövlət başçımız humanizmlik göstərir və onları əfv edir. Onu da qeyd edim ki, bu xeyirxah ənənənin əsası Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub. Heydər Əliyev 1993-cü ildə xalqın təkidi ilə yenidən siyasi hakimiyyətə gəldikdən sonra insan hüquqlarının təmin olunması istiqamətində mühüm addımlar atılıb, ölüm hökmü ləğv edilib. Ümummilli Liderin ölkəmizə rəhbərliyi dövründə çoxsaylı əfv Sərəncamları imzalanıb, amnistiya aktları qəbul edilib. Bu ənənəni bu gün Prezident İlham Əliyev davam etdirir".

C.Şahverdiyev vurğulayıb ki, Azərbaycan vətəndaşların bütün hüquq və azadıqlarının təmin olunduğu, qorunduğu demokratik və hüquqi dövlətdir. Hökumət həmişə vətəndaşlarına qarşı humanist mövqe nümayiş etdirir, onların cəmiyyət daxilində təhlükəsiz, əmin-amanlıq şəraitində yaşamalarını təmin edir: "Bu baxımdan Prezident İlham Əliyev öz siyasətində daim humanizm prinsipləri üzərində qurub. İlham Əliyev hər bir Azərbaycan vətəndaşının Prezidentidir. Xalqa xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq onun həyat fəlsəfəsidir".

***Gülyana***

# Ermənistan əhalisinin yarısından çoxu ölkədəki gələcəyinə şübhə ilə yanaşır



Ermənistan əhalisinin yalnız 43%-i qarşıdakı 5-10 il ərzində öz ailəsinin gələcəyinin Ermənistanla bağlı olacağını düşünür. "İki sahil" xəbər verir ki, bu ABŞ-ın Beynəlxalq Respublikaçılar İnstitutunun (International Republican Institute) Ermənistanda keçirdiyi sorğunun nəticələrində əksini tapıb.

Belə ki, "növbəti 5-10 il ərzində Ermənistanda ailəniz üçün bir gələcək görürsünüzmü?" sualına respondentlərin yalnız 43%-i əminliklə "hə" cavabı verib. Sorğu iştirakçılarının 23%-i belə bir ehtimalın olduğunu, 11%-i buna ehtimal vermədiyini, 9%-i isə Ermənistanda qəti şəkildə ailəsi üçün bir gələcək görmədiyini qeyd edib. Respondentlərin 14%-i isə sualın cavabını bilmədiyini qeyd edib.

Bundan başqa, sorğu iştirakçılarının yalnız 51%-i qarşıdakı 1-4 il ərzində ailəsi üçün Ermənistanda bir gələcək görməsi barədə əminliklə "hə" cavabı verib. Qeyd edək ki, sorğu Ermənistanın müxtəlif şəhər və ucqar bölgələrində 2021-ci ilin fevralın 8-dən 16-dək keçirilib, iştirakçılar RDD vasitəsi ilə (random digit dialing) seçilib.

# Yaradılış bayramının gerçək mahiyyəti

## Novruz insanlığın, sülhün, humanizmin, mənəviyyatın - bir sözlə, yaradılışın bütün dəyərlərini özündə birləşdirən bayram şənlikləridir

***Yaranışın ən qədim beşiklərindən hesab olunan Odlar Yurdu Azərbaycanda möhtəşəm mədəniyyət yaradan xalqımızın dünya sivilizasiyasına verdiyi misilsiz töhfələrdən olan Novruz bayramının mahiyyəti göründüyündən daha dərinlərə dayanır. Zəmanəmizdə məqsədli şəkildə bu bayramın təhrif edilməsi cəhdləri belə min illər boyu bu bayramı yaşadan xalqların gen yaddaşından onun dəyişməz ənənələrini silə bilməyib.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

### Yaradılış və yenilənmə bayramı

Novruz bayramı insanın, təbiətin, kainatın yaranış bayramıdır. Bahar bayramı haqda məlumatlara qədim Şumer mətnlərində, 5-6 min illik tarixə dayanan ilk müqəddəs kitabda- Avestada, ilk peyğəmbər Zərdüştün qatlarında, həmçinin bir o qədər də yaşı olan Dədə Qorqud dastanlarında və digər qədim mənbələrdə rast gəlinir. Əslində, Bahar bayramının fəlsəfəsinin özü yenidən doğuluşdur. Köhnə il "ölür", yeni il doğulur. Novruz bayramı mərasimlərində "Kosam ikicanlıdır" ifadəsi işlədilir. Burada "ikicanlı olmaq" Kosanın ilin obrazı kimi anlaşılmasıdır: mərasimin ortasında Kosanın ölməsi-dirilməsi əslində ilin dəyişməsi, təbiət qüvvələrinin oyanması deməkdir.

Xüsusilə kənd yerlərində qadınlar evdəki köhnə şeyləri təzələyirlər: yorğan-döşəyi yuyurlar, divarları ağardırlar, köhnə şeyləri atırlar. Qabaqlar valideynlər balalarına Novruz bayramında nəsə yeni paltarlar alardılar. Bu, arxetipik şüurla bağlı idi: yəni burada başdan-başa təzələnmə nəzərdə tutulurdu. Bu mənada Novruzun əsas mahiyyəti təzələnmə, yeniləşmə bayramıdır

Yunan tarixçisi Plutarx yazır: "Midiyalılarda buğda çox müqəddəs hesab edilir. Yazın əvvəllərində midiyalılar buğdanı cücərdirlər. Bu, Omani adlanır".

Qərbi hindistanlıların danışdıqları qədim sanskrit dilində Omani Sumani adlanır ki, bu da buğda kəlməsi ilə eyniləşir. Bu kəlmə dilimizdə Səməni adlanaraq Novruzun rəmzinə çevrilib. Onu da qeyd edək ki, əvvəllər Səmənini satmazdılar, hər kəs öz evində, öz əli ilə Səməni göyərdərdi. Çünki Səməni evin, yurdun bolluq və bərəkət rəmzi sayılırdı.

### Ruhi təmizlənmə mərasimləri

Bahar bayramında və onun 4 ünsürə aid edilən çərşənbələrində ocaqlar yandırar, bayram mərasimlərində Tanrını vəsf edən mərasim nəğmələri oxunar, məbədlərdə böyük bayram tədbirləri keçirilərmiş. İmkansızlara yardım edilər, küsülülər barışar, yurdda sülh və əmin-amanlıq hökm sürərmiş. Fikrimizcə, bu mərasimlər ən qədim inancların, Tanrıya saf qəlbdən tapınmanın əyani nümayişi olaraq, maddi təbiətin 4 ünsürünün insan həyatında oynadığı əvəzedilməz rolun layiqli qiymətləndirilməsinə xidmət edir. Məhz bu səbəbdən 4 çərşənbənin hərəsi təbiətin bir ünsürünə həsr olunarmış.

Su, Od, Yel və Torpaq çərşənbələrində insanlar bu ünsürlərin vasitəsilə ruhi cəhətdən təmizlənərmişlər. Məsələn, Od çərşənbəsində odun üzərindən tullanmaqla, su çərşənbəsində saf su ilə yuyunmaqla, torpaq çərşənbəsində həyətdə lağım qazıb içindən sürünərək keçməklə, yel çərşənbəsində isə açıq havada çox gəzməklə təmizlənərmişlər.



### Qansız qurban bayramı

Od çərşənbəsində Tanrının ən güclü maddi enerjisi saydıqları Odun vasitəsilə Yaradana minnətdarlıq əlaməti olaraq onun öz nemətlərindən qansız qurbanlar verərlərmiş. (Bu bayramın bu əsas elementi- Odun vasitəsilə Tanrıya qansız qurban mərasimi ilə bağlı Tovuzda səhnələşdirərək çəkdiyimiz qısametrajlı televiziya filminə buradan baxa bilərsiniz- https://www.youtube.com/watch?v=H54k30G8WiE&t=18s)

Axırıncı, ilaxır çərşənbə gecəsi ən əziz çərşənbə hesab olunur. Bu cərşənbə Danatma adlanir. Həmin gecə hec kim yatmaz, çillə keçirər, Ulu Danı- müqəddəs Günəşi qarşılayardı. İnsanlar səhər tezdən hündür bir təpənin üstündə tonqal qalayar və həmin tonqalın dövrəsinə toplaşaraq Günəşin doğmasını gözləyərmişlər. Elə ki, Günəş doğdu, hamı xorla təbiətin bu "odlu qızı"nı salamlayan "Qodu xan" nəğməsini oxuyar, tonqalın başında dövrə vurar, sonra da hərə öz məşəlini yandırıb ocaqlarını alışdırmaq üçün evlərinə tələsərdilər.

Torpaq çərşənbəsində həm də qəbiristanlıqlara və müqəddəs yerlərə ziyarətə gedir, ata-babaların əziz ruhunu şad etmək və ehtiram bildirmək üçün məzarların üzərinə bayram payı düzülür, ətrafında məşəllər və şamlar yandırılır. Bu qədim ənənəni Tovuz televiziyasında çalışarkən apardığımız çəkiliş zamanı Düz Qırıqlı kəndində müşahidə etmişəm. Bu cür səhnələr bizə Dədə Qorqud dastanlarından da tanışdır.

### Novruz mifoloji və kosmoqonik biliklərə əsaslanır

Novruz bayramının nəyə görə məhz martın 21-də qeyd olunması çox mətləblərə aydınlıq gətirir. Məhz bu gün astronomik təqvim ili başlayır. Bu fakt sübut edir ki xalqımız ta qədim zamanlardan yüksək kosmoqonik və astronomik biliklərə, kainat haqda təsəvvürlərə malik idi. Bu haqda qədim biliklər və belə dəqiqlik yalnız heyrət doğura bilər. Elm isə yalnız son əsrlərdə sübut edə bilib ki, gecə-gündüz bərabərliyi və təbii qüvvələrin tam oyanması məhz həmin gecə baş verir.

Novruz bayramı faktiki olaraq, təbiətin, dünyamızın yeni il bayramıdır. Novruzda Zərdüştlükdən gələn xeyirin şər üzərindəki qələbəsinə inam yaşayır, təsdiq olunur. Yəni, Tanrının xeyir və şər enerjisi arasındakı mübarizədə hansı tərəfin qalib gəlməsi insanların özündən asılıdır.

Müqəddəs günlərin çərşənbə axşamı seçilməsinin isə mahiyyəti bundan ibarətdir ki, qədim dini-fəlsəfi biliklərə əsasən, Tanrı dünyanı yaradanda həftənin ilk günündə hazırlıq işlərini görmüş, 2-ci gün (çərşənbə axşamı) yaratmağa başlamışdı: 3-cü gün su, 4-cü gün od, 5-ci gün torpaqla bağlanan varlıqları yaratmış; 6-cı gün yaranışların hamısına ruh (can) vermiş, 7-ci gün isə istirahət etmişdi. Bu inama görə, bütün İlahi yaradıcılıq işlərinin bünövrəsinin qoyulması çərşənbə axşamına düşür. Novruz gününə Hürmüz günü, yəni, Tanrı günü deyilərdi. Bu bayram həm də insanların Uca Tanrıya ehtiramı və yaradılışa görə Ona minnətdarlığıdır.

### Novruz süfrəsi unikal və zəngindir

Novruzun öz spesifik süfrəsi var. Bayram yeməklərin şahı təbii ki, xalqımızın kulinariyasında ən dəyərli yemək sayılan aşdır. Novruz aşı xüsusi formada müxtəlif meyvə qurularından ibarət qara ilə bəzədilir və ətrafına şamlar düzülür. Bundan əlavə, hər evdə Novruz xonçası hazırlanır. Bu xonça xeyli çeşiddə meyvələr, Novruz şirniyyatları olan paxlava, şəkərbura və sair şirnilər, qoz-fındıq, boyanmış yumurtalar və s. nemətlərlə bəzədilir, kənarında şamlar yandırılır.

Yeri gəlmişkən, yumurta həyat rəmzi sayılır və onun boyanması həyatın çalarlarına işarədir. Novruz xonçası düz süfrənin ortasına qoyulur. Xonçanın mərkəzində isə, bu bayramın əsas atributlarından biri olan Səməni olur. Səməninin şər qüvvələri evdən qovduğuna, bərəkət və şadlıq gətirdiyinə inanan xalqımız onu süfrənin ən şərəfli yerində qoyur. Səməninin ta qədimdən bəri Azərbaycan xalqının müqəddəs rəng hesab etdiyi qırmızı rəngli sarğı ilə əhatələnməsi də təbiidir. Qırmızı Tanrıya sevginin, müsbət enerjinin, xeyir quvvələrin və toy-bayramın rəngidir.

### Novruzun əsas bayram ritualları

Bahar bayramının atrubutları da zəngindir- "Atıl-Batıl", "Kosa-kosa", "Yeddiləvin", "Səməni", "Cıdır", "Od qalama və üstündən atılma", "Axar su başına getmə və su üstündən atılma", "Evə təzə il suyu gətirmə", "Qulaq falına çıxma" və s. kimi adətləri bu gün Azərbaycanda və digər yerlərdə yaşadılmaqdadır.

Novruz insanları azı 1 ay xoş əhval-ruhiyyədə və həm fiziki, həm də ruhi cəhətdən təmiz formada saxlayır. Çərşənbələrdə hamı bir-birinə pay-püsk aparır, qonaq gedir bayramlaşırlar. Bu ay ərzində ancaq xoş sözlər danışır, xeyir işlər görülür, küsülülər zorla olsa da barışdırılır. İnsanlar çərşənbə və böyük bayram axşamı məşəllərlə və toy-bayramla çöllərə çıxır, elliklə gəzinti keçirir şənlənirlər. Cavanlar evlərin qapısına papaq atırlar, ev yiyəsi də onların bayram payını qoyur papağın içinə. Bu bayramda qapı pusma, şəhərədək çillə keçirilməsi və s. zəngin adət-ənənələr var ki saymaqla qurtarmaz. Kosa, bahar qız və keçəlin ifasında nümayiş etdirilən tamaşalar isə dünyanın ilk xalq teatrıdır, təbiət hadisələrinin dramatikləşdirilmiş formada səhləşləşdirilməsidir.

### Səməd Vurğunun kəndində unikal Novruz mərasimləri

Yeri gəlmişkən, hazırda Novruzun ən qədim koloritləri, zəngin adət-ənənələri ilə birlikdə keçirilməsinə Səməd Vurğunun doğulduğu kənddə- Qazax rayonunun Yuxarı Salahli kəndində rast gəlmək olur. Bahar bayramı martın 21-dən 22-nə keçən gecə bu kənddə o qədər maraqlı adətlər və zəngin ənənələrlə keçirilir ki, sanki qədim dövrlərə düşmüsən. Hər il buraya ölkəmizin hər yerindən qonaqlar gəlir ki, bu gecəni canlı seyr etsinlər.

Bu sətirlərin müəllifi də bir neçə il əvvəl Novruz gecəsini həmin kənddə keçirib, həmin kənddə keçirlən mərasimlərlə bağlı kiçik bir televiziya filmi çəkə bilib və bu film Tovuz televiziyası (SmTv) ilə nümayiş olunub. Ümumiyyətlə, orada təşkil olunan mərasimlər tam bir kitablıq söhbətdir. Düsünürəm ki, hələlik itirilməyən ən qədim elementləri özündə cəmləyən bu mərasimin araşdırılması ilə tarixçilərimiz və folklorsunaslarımız ciddi məşğul olsa yaxşıdır.

### Sovet dövründə Novruz bayramı necə keçirilib?

Novruz bayramı tarixdə ilk dəfə olaraq Azərbaycanda, Sovet hakimiyyəti zamanı rəsmi dövlət bayramı elan edilmişdir. Belə ki, Sosialist Respublikanın banisi Nərimanovun təşəbbüsü ilə ilk dəfə Novruz bayramı 1921-ci ildə dövlət səviyyəsində qeyd edilmiş və həmən günü qeyri iş günü elan edilmişdir.

1931-ci ilə kimi Novruz Azərbaycanda dövlət bayramı kimi qeyd edilmişdir və sonra bəziləri tərəfindən dini bayram kimi qələmə verildiyi üçün, rəsmi bayramlar siyahısından çıxarılıb. Müəyyən müddət rəsmi dövlət bayramı kimi keçirilməsə də, hər il Novruz ümumxalq bayramı kimi qeyd edilmişdir. Televiziyada, teatrda, kinoda, ədəbiyyatda Novruza geniş yer verilir, məktəb kitablarında Bahar bayramıyla bağlı şerlər dərc olunurdu.

Xalqımızın layiqli oğulları, xüsusən də Şıxəli Qurbanov bunun xalq bayramı olduğunu ortaya qoydu və 1967-ci ildən Bahar bayramı yenidən dövlət səviyyəsində keçirildi. Bahar bayramı birmənalı olaraq, yaradılışın ad günü, dünyanın yaranmasını özündə ehtiva edir və insanlara bəxş olunan nemətlərə görə Tanrıya minnətdarlığı özündə ehtiva edir. Ən qədim vətəni Azərbaycan olan və hazırda çoxsaylı Asiya xalqları tərəfindən keçirilən Novruz bayramı dünya sivilizasiyasına məxsus elə bir zəngin xəzinədir ki, bəşəriyyətə bundan qədimi və bundan möhtəşəmi hələ məlum deyil. YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına salınan bu bayram Yaradılış, İnsanlıq, Mənəviyyat, Sülh və Humanizm bayramı kimi dünya xalqlarının mədəniyyət xəzinəsində ən önəmli yerini saxlayır.

***Elçin Bayramlı***

# Aram Qabrielyan bu dəfə erməni müxalifətini hədəfə aldı

*“Əgər siz ölkəni xilas edə bilməyəcəksinizsə, insanlar sizdən də Paşinyanda olduğu kimi, bu cür üz döndərəcəklər”*

***44 günlük müharibə vaxtı “WarGonzo” adlı layihə hazırlayaraq, məhz onun vasitəsi ilə rusiyalı reportyor Semyon Peqova Qarabağ cəbhəsində qanunsuz çəkilişlər aparıb, saxta məlumatlar yaymağı tapşıran Rusiyadan olan erməni mediamaqnatı Aram Qabrielyan (sosial şəbəkələrdə Aşotıç kimi tanınır-R.R.) Ermənistanın uğradığı ağır məğlubiyyətdən sonra revanşçı və etirazçı müxalifətin yanında yer aldı. Belə ki, müxalifətin ard-arda keçirdiyi etiraz yürüşləri və mitinqlərinə dəstək göstərən Qabrielyan nəticədə onların da heç nəyə nail ola bilmədiklərini gördükdən sonra bu dəfə hədəf kimi məhz onları götürüb.***

### “Dözün, sabah xəyanətkar Paşinyanı devirəcəyik, qışın sonuna qədər dözün, devirəcəyik, isti günəşli vaxta qədər dözün, devirəcəyik”

SİA xəbər verir ki, özünün teleqram kanalında müxalifətçilərin lideri Vazgen Manukyana, keçmiş pezidentlər Levon Ter-Petrosyana, Robert Koçaryana və Serj Saqrsyana, həmçinin keçmiş hakimiyyət nümayəndələrinə ironik yanaşma edən Aram Qabrielyan özünün teleqram səhifəsində yazıb. SİTAT: “Bilirsiniz, yaxşı və baha otellərin restoranlarında şef aşpazları çox qiymətləndirirlər. Xüsusilə səhər naharlarını keyfiyyətli hazırlayan aşpazlara. Hesab olunur ki, otel qonaqları səhər naharlarını çox sevir və dəyərləndirirlər. Günə necə başlayırsansa, elə də davam edəcək. Erməni müxalifətinin bütünü, 17 partiyanın hər biri, həmin keçmiş prezidentlər, baş nazirlər, onları əhatə edənlər dünyanın ən yaxşı aşpazlarıdırlar. Bunu görmək, hiss etmək lazımdır: dörd aydan çoxdur ki, onlar dünya ermənilərini səhər naharları ilə təmin edirlər. Dözün, sabah xəyanətkar Paşinyanı devirəcəyik, qışın sonuna qədər dözün, devirəcəyik, isti günəşli vaxta qədər dözün, devirəcəyik”.









### “Bu aylar ərzində mən yüzlərlə ifadələr eşitdim - Kreml, Makron, Bayden, Soros, Şmoros”

Qabrielyan bu vasitə ilə müxalifət liderlərinin erməni xalqının başına ip salıb oynatdıqlarını iddia edərək davam edir: “Özlərini müxalifət adlandırıblar, meqafonları (səsgücləndiriciləri - R.R.) alıblar öz əllərinə, müxtəlif dillərdə müsahibələr verirlər, şahmatçılar, biznesmenlər, keçmiş siyasətçilər, kürəkənlər (eks-prezident Serj Sarqsyanın İtaliyada yaşayan kürəkəni, sabiq səfir Mikael Minasyana işarə edir-R.R.), kürəkənlərin dostları, kimlər olursa-olsun. Yazırlar, müzakirə edirlər, dolma yeyirlər, əla konyak içirlər - ürəkləri nə istəyirlərsə edirlər, amma Paşinyanı devirmirlər. Bu aylar ərzində mən yüzlərlə ifadələr eşitdim - Kreml, Makron, Bayden, Soros, Şmoros. Birinci sual yaranır - bəs siz, müxalifətçilər kimlərsiniz?

İkinci sual - Sorosu Ermənistana mən buraxmışam? Yeqova şahidlərini Ermənistana mən daxil etmişəm?

Üçüncü sual - Levondan (Ter-Petrosyandan) başlayaraq Paşinyana qədər İrəvandakı bir-birindən cah-cəlallı evləri mən tikmişəm, yoxsa sizlər - generallar və məmurlar?”

### “Gözləyirsiniz ki, onlar yığışaraq əclafı atacaqlar çölə və hakimiyyəti də sizə təhvil verib deyəcəklər: daha otuz il sükanı əlinizdə saxlayın?”

Rusiyalı erməni mediamaqnatı hazırkı müxalifətin ölkəni talan edənlərdən ibarət olduğunu da yazıb: “Bu yoxsul ölkəni 30 il mən talan etmişəm? Hansı ki, nəticədə paşinyançı “Mənim Addımım”ı təmsil edən əclaflar da bu yolu tutublar. Axı müxalifət olaraq heç nə edə bilmirsiniz, yığışın və bunu deyin: ermənilər, biz varlı adamlarıq, biz iradəmizi itirmişik, biz heç nə edə bilmirik. Biz gedirik. Boğulanları xilas etmək boğulanların öz əllərinin işidir. Heç olmasa bu cür daha doğru olar”.

“Siz otuz il süni şəkildə erməniləri diasporlara yönəldirdiniz”, deyə yazan Qabrielyanov müxalifətçilərin ümidlərini diaspora tikmələrini də ittiham edib.

“İndi nədir? Gözləyirsiniz ki, onlar yığışaraq əclafı atacaqlar çölə və hakimiyyəti də sizə təhvil verib deyəvəklər: daha otuz il sükanı əlinizdə saxlayın? Yanılırsınız. Bir az zaman keçəcək, əgər siz ölkəni xilas edə bilməyəcəksinizsə, insanlar sizdən də Paşinyanda olduğu kimi, bu cür üz döndərəcəklər. Mən 25 ildir ki, siyasətlə və jurnalistika ilə məşğulam, nə danışdığımı da bilirəm!”, deyə Aram Qabrielyanov erməni müxalifətinə qarşı yürütdüyü ittihamını sona çatdırıb.

**Rövşən RƏSULOV**

---

# “Əsl erməni siyasəti...”

***Bu, lənətə gəlmiş dərd, erməniləri elə çuğlayıb ki, artıq neçə müddətdir ki, ondan qurtula bilmirlər. Məsələ budur ki, indi də onlar UNICEF-nin artıq Ermənstanda sabiq olmuş nümayəndəsi Merienne Klark-Xattinqın ermənilərin “dövlət sirlərinə” necə nüfuz etdiyini, bu “sirləri” Böyük Britaniya və Türkiyəyə necə ötürdüyünü dərd eləməyə başlayıblar.***

Görən, Ermənistan kimi bir ölkədə bu sirləri ingilis qadına kim və ya kimlər ötürürmüş? Görən, Xattinq ermənilərin hansı mənbələrdən belə dəyərli məlumatları əldə edib ermənilərin düşmənlərinə göndərirmiş? Adamın xəyalı min yerə gedir. Görən, bu Paşinyan olmaya... Təbii ki, hər şey ola bilər. Bu gün ermənilərin Rusiyanın qorxusundan tərəddüdlə də olsa, Avropaya can atdığı bir məqamda Paşinyandan nə desən gözləmək olar. Əslində, burada günahkar kimi, Nikol Paşinyandan çox Robert Koçaryanı görmək lazımdır. Çünki məhz onun prezidentliyi dövründə ingilislər erməniləri adam yerinə saymamağa başlamışdılar. İngilislər hətta Koçaryanın prezidentliyi dövründə bir dəfə də olsun onu “hörmətli qonaq” kimi Londona dəvət etməmişdilər. Bəs, Serj Sarkisyana nə deyəsən? O ki boyca balaca olsa da, daxildə “böyük siyasətçi” idi. Bəs belə olan halda ingilislər onu niyə heç olmasa bir dəfə də olsa, Londonu görməyə çağırmadılar?

Belə görünür, onların özlərini belə şişirtməklərinə baxmayaraq, əslində cılız siyasətçilərdən biriymişlər. Hər halda, Nikol Paşinynla müqayisədə bunu əminliklə demək olar. Nə isə, mətləbdən uzaqlaşmayaq.



İndi ermənilər, Nikolun adını ağartmasalar da, amma “erməni sirlərinin” Xattinq xanıma məhz baş nazirin yaxınları tərəfində ötürdüyünə əminlik bildirirlər. Təbii ki, Ermənistanda çoxları bunu dərindən dərk etməsələr də, əslində bu da siyasətdir.

Vaxtilə ingilislərə bir çox “yaxşılıqlar” edən ermənilər indi də onlarla münasibətlərini yenidən bərpa etməyə çalışırlar. Ona görə də, bir-iki erməni dövlət sirrini Xattinq xanıma ötürməklə, Ermənistana heç nə olmayacaq. Amma Ermənistan, onun rəhbərliyi ingilislərin gözündə “göylərə” qalxacaq. Bundan sonra Ermənistanın bütün əməllərinin ingilislər tərəfindən də “təqdir ediləcəyi” heç bir şübhə yeri qoymur.

“...Görəsən, ingilislər dünənə qədər saymadıqları “əzabkeş bir xalqı” “əzabkeş” xalq kimi qəbul edəcəklərmi?”

**Ağasəf Babayev**

# Ermənilərin kilsə oyunları baş tutmadı

*Son bir neçə gündür ki, Rusiya KİV-lərində fəaliyyət göstərən erməni müəlliflərinin, eləcə də erməni lobbisinin nəzarəti altında olan mətbuat səhifələrində guya Şuşadakı "Kanaç Jam" adlı "erməni kilsəsinin" azərbaycanlılar tərəfindən dağıtması barədə dezinformasiyalar yayılmaqdadır. SİA-ya daxil olan məlumata görə, dezinformasiyanın inandırıcı görünməsi üçün kilsənin iki fotodan ibarət kollajlarında Şuşanın azad olunmasından "əvvəlki" və "sonrakı" vəziyyəti göstərilir və iddia edilir ki, sözügedən "erməni kilsəsi" məhz azərbaycanlılar şəhərə daxil olandan sonra "dağıdılıb".*







**Həmin kilsə Qarabağ xanlığının 1805-ci ildə Rusiya imperiyasının tərkibinə daxil olduğu zamanlarda inşa edilib**

Əgər şəhərin azad edilməsindən sonrakı fotosuna baxsaq maraqlı detal nəzərdən yayınmır. Belə ki, iki itibucaqlı günbəzin demontajı diqqət çəkir. Erməni KİV-ləri müvafiq "arqumentdən" istifadə edərək iddia edirlər ki, guya mövcud fotoşəkil onların sözlərinin həqiqiliyini əks etdirir.

Lakin dezinformasiya ilə məşğul olan erməni müəllifləri nədənsə rusdilli ictimai rəyə göstərdikləri məbədin, ümumiyyətlə, erməni kilsəsinə aidiyyatı olmadığını deməyə tələsmirlər. Belə ki, göstərilən tikili məhz ruslara aid olan pravoslav kilsəsidir və həmin kilsə Qarabağ xanlığının 1805-ci ildə Rusiya imperiyasının tərkibinə daxil olduğu zamanlarda inşa edilib.

**Pravoslavların "Müqəddəs Vəftizçi İohan"nını erməni qriqorianlarının "Kanaç Jam"ına çeviriblər**

Məhz bu faktdan sonra ermənilər necə deyərlər, "qaş düzəltdikləri yerdə", vurub "öz gözlərini çıxarıblar". Misal üçün, ermənilər Rus pravoslav kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyasına məlumat vermədən Qarabağdakı Rus kilsəsni erməniləşdiriblər, eləcə də kilsənin adını dəyişdirərək "Müqəddəs Vəftizçi İohan"ndan "Kanaç Jam"a çeviriblər.

Xatırladaq ki, 2019-cu ildə bu barədə Yeparxiyanın mətbuat katibi protoiyeriy Konstantin Pominov da danışıb.

SSRİ dövründə kilsə təyinatı üzrə fəaliyyət göstərməyib və yerli sanatoriyanın hissəsi olub. Şəhər sakinləri isə onu "su qalereyası" adlandırıblar. Kilsə ilə yanaşı həmin sanatoriya yerləşib və işğal faktında Şuşa sakinləri olan azərbaycanlıların evləri kimi, həmin müəssisə də dağıdılıb.

**1894-cü ildə Xocavənd rayonunda inşa edilmiş Rus Pravoslav Kilsəsi də acı taleyini yaşayıb və ermənilər tərəfindən yerlə-yeksan edilib**

Hazırda Şuşada pravoslav kilsəninə məxsus abidənin bərpası işi apaılır və ona əvvəlki görkəminin qaytarılması üçün fəaliyyətə başlanılıb. Sonradan ermənilər tərəfindən məbəd üzərində düzəldilən itibucaqlı konus demontaj edilib, onun yerinə isə, məhz tipik rus memarlığına xas olan gümbəz düzəldilir. Kilsənin yaxın vaxtlarda Bakı Rus pravoslav kilsəninin yeparxiyasının nəzdinə veriləcəyi bildirilir.

Daha bir mühüm xatırlatmanı da edərək qeyd edə bilərik ki, erməni vandalizmi yalnız azərbaycanlıların tarixi-mədəni və dini irsinə deyil, həm də xristianların dini ziyarətgahlarına qarşı da tətbiq olunub və yuxarıda qeyd edilən faktla başa çatmır. Belə ki, 1894-cü ildə Xocavənd rayonunda inşa edilmiş Rus Pravoslav Kilsəsi də bu acı taleyi yaşayıb.

***Rövşən RƏSULOV***

İFŞA+FOTOLAR

# YAP Səbail rayon təşkilatı "Şəhid ailələrinə qayğı" aksiyasını davam etdirir




YAP Səbail rayon təşkilatının gəncləri Novruz bayramı ərəfəsində "Şəhid ailələrinə qayğı" aksiyası çərçivəsində Vətən müharibəsinin şəhidi Orxan İsmayılov Zöhrab oğlunun ailəsini ziyarət ediblər. Ailə ilə səmimi söhbət edən gənclər Azərbaycanın ərazi bütövlüyü və Vətən torpaqlarının işğaldan azad olunması uğrunda ilk günlərdən ön cəbhədə qəhrəmanlıqla döyüşən şəhidimizin döyüş yoluna nəzər salıblar, hər günü şanlı tarix olan 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Qarabağ Zəfərini borclu olduğumuz bütün şəhidlərimizin əbədiyaşar xatirəsini bir daha ehtiramla yad ediblər və bu şərəfli mübarizədə sağlamlığını itirən qazilərimizə Allahdan şəfalar diləyiblər. Vurğulayıblar ki, Azərbaycan xalqı, gələcək nəsillər qəhrəman Vətən oğullarının xidmətlərini, şücaətini, mərdliyini, fədakarlığını əbədi yaşadacaq və Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Şanlı Qələbəsi böyük bir qəhrəmanlıq dastanı kimi xatırlanacaqdır.

Şəhid ailəsinin üzvləri dövlətin diqqət və qayğısından razılıqlarını ifadə ediblər. Ailəyə Novruz sovqatı və maddi yardım təqdim olunub.

Şəhidlik kimi ən ali və şərəfli zirvəyə yüksələn, təkcə ailələrinin və doğmalarının deyil, bütün Azərbaycanın qüruru və fəxri olan şəhidlərimizin ruhları qarşısında bir daha baş əyirik. Ruhunuz şad olsun, Vətənimizin qəhrəman oğulları!

***R.HÜSEYNOVA***

# Baş Prokurorluq və DİN Gəncədə gənc qızın qətli ilə bağlı birgə məlumat yaydı



Baş Prokurorluq və DİN Gəncədə gənc qızın qətli ilə bağlı birgə məlumat yayıb. Mətbuat xidmətlərindən SİA-ya daxil olan məlumatda qeyd edilir ki, 19 fevral 2021-ci il tarixdə Gəncə şəhər sakini 2002-ci il təvəllüdlü Musayeva Pərvin Xəqani qızının itkin düşməsi ilə bağlı Gəncə şəhər Nizami rayon Polis idarəsinə daxil olmuş məlumat əsasında aparılan araşdırma zamanı prokurorluq və polis əməkdaşlarının peşəkarlıqla həyata keçirdikləri istintaq-əməliyyat tədbirləri nəticəsində qeyri-aşkar şəraitdə törədilmiş ağır cinayətin "isti izlər"lə açılması təmin edilərək itkin düşmüş Pərvin Musayevanın qəsdən öldürülməsi müəyyən edilib.

Cinayət prosessual qanunvericiliyinin tələblərinə əsasən, prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, müvafiq ekspertizalar təyin edilib, maddi sübutlar götürülüb, şahidlər dindirilib və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Araşdırmalarla zərərçəkmişin tanışı 2001-ci il təvəllüdlü Cəfərov Sərdar Saləddin oğlunun 19 fevral 2021-ci il tarixdə özünə məxsus avtomobildə qısqanclıq zəminində aralarında yaranmış mübahisə zamanı Pərvin Musayevanı boğaraq öldürməsi və meyitini Gəncə şəhəri, Avtozavod qəsəbəsində yerləşən məişət tullantılarının atıldığı əraziyə atmasına əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Gəncə şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Sərdar Cəfərov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb ediliblər. Hazırda iş üzrə intensiv istintaq tədbirləri davam etdirilir.

# Vazgen Manukyan: "Seçkilərdə iştirak etməyəcəyəm, keçirilməsinə də icazə verməməliyik"



Paşinyanın açıqlaması onun seçki keçirəcəyi demək deyil, amma bu baş verərsə, heç bir şəkildə iştirak etməyəcəyəm və bu cür seçkilərin keçirilməsinin qarşısını almaq üçün hər şey edilməlidir. SİA Ermənistana məxsus mətbuat səhifələrində yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri "Vətənin Qurtuluşu Hərəkatı" adlı müxalifət qruplaşmasından Ermənistan Baş Nazirliyinə namizəd Vazgen Manukyan 18 mart tarixində NEWS.am saytına verdiyi müsahibəsində söyləyib.

Onun sözlərinə görə, Nikol Paşinyan getməyincə və komandasından olmayan biri gəlməyincə, seçkiyə getmək olmaz. O, izah edib ki, bəlli bir müddət keçməlidir və belə şərtlər daxilində seçki keçirmək mümkün deyil.

"Nikol Paşinyan istefa versə, lakin hakimiyyət onun komandasının əlində qalsa, heç bir halda seçkilər olmayacaq. Əgər Paşinyan özü seçkiləri keçirəcəksə, o zaman ümumiyyətlə olmaz", deyə Vazgen Manukyan bildirib.

Vazgen Manukyan Nikol Paşinyan dövründəki seçkilərin Ermənistan üçün fəlakət olduğunu təkrar olaraq qeyd edib.

"Vətənin Qurtuluşu Hərəkatı" hələ bu məsələni müzakirə etməyib", deyə baş nazirliyə namizəd əlavə edib.

Xatırladaq ki, 18 martda Ermənistanın baş naziri Nikol Paşinyan Facebook səhifəsində erkən parlament seçkilərinin bu il iyunun 20-də keçiriləcəyini yazmışdı. Bunun ardınca müxalifət nümayəndələri onun fikirlərinə münasibət bildirməkdən çəkinməyib. Məsələn, müxalifət cəbhəsindən olan "Parlaq Ermənistan"ın lideri Edmon Marukyan Paşinyanın öz sosial şəbəkə hesabında paylaşımından dərhal sonra ölkədəki erkən parlament seçkilərinə münasibətini bildirib. Ən kəskin fikirlər isə Vazgen Manukyana məxsusdur və o birmənalı şəkildə hazırki baş naziri, onun hakimiyyət komandasını rədd edir, onlarla birgə seçkini təsəvvür belə etmək niyyətində deyil. Bu isə hələ qarşıdurmaların bundan sonra daha kəskin olacağından xəbər verir.

***İnam Hacıyev***

# AXCP-Müsavat cütlüyü növbəti dəfə xain və düşmən mövqeyində olduğunu isbatladı

**1992-1993-cü illərdən 28-29 il ötür. Bəli, zaman və dövr dəyişib. Azərbaycanımız da, dünya da fərqli olub. Lakin dəyişməyən, yaxud dəyişmək istəməyənlər hələ də həmin dövrdə ilişib qalıblar. Söhbət 29 il öncə AXC-Müsavat olan, hazırda isə 19 yerə parçalandıqdan sonra AXCP-Müsavat cütlüyü kimi tanınanlardan gedir. Onlar üçün bu gün də məqsəd və məram hakimiyyətdir. Hakimiyyətə gəlmək üçün 29 il öncə olduğu kimi, indi də xəyanət, düşmənçilik mövqeyini tutmağa hazır olduqlarını nümayiş etdirirlər. Bu xəyanət və düşmənçiliyi 27 il sonra işğaldan azad olunmuş Ağdam rayonuna partiyaların səfəri zamanı da göstərdilər.**

Hər kəs bilir ki, 17.03.2021-ci il tarixində Azərbaycanda fəaliyyət göstərən partiyaların sədrləri və fəalları işğaldan azad edilmiş Ağdam rayonunda vəziyyətlə tanış oldular. Səfərdə Əli Kərimlinin sədri olduğu AXCP və Arif Hacılının başqanı olduğu Müsavat Partiyasından başqa ölkəmizin bütün partiyaları iştirak ediblər. AXCP və Müsavat Partiyası erməni vandalizminin, barbarlığının şahidi olmuş Ağdam rayonuna səfərdən imtina etmələrinə müxtəlif bəhanələr də gətiriblər. Məsələn, Arif Hacılı deyib ki, guya Ağdam səfəri siyasi oyunun tərkib hissəsidir və buna görə səfərdə iştirakdan, Ağdama digər siyasətçilərlə birlikdə getmək təklifindən imtina ediblər. AXCP-dən də bildiriblər ki, yerli insanların Ağdamdakı vəziyyətdən xəbəri var və ora səfər etmək mənasızdır.

Bu cür fikirlərdən görünən yalnız bir mənzərə var. AXCP və Müsavat üçün Qarabağ torpaqları hələ də hakimiyyətə gəlmək üçün satılıq ərazidir. Onlar heç bir halda torpaqlarımızın işğaldan azad olunması faktı ilə barışa bilmirlər. Əli Kərimli, Arif Hacılı kimilər Ermənistanın məğlub olmasını, onların satdığı torpaqların Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən düşməndən təmizlənməsini həzm edə bilmirlər. Bu, onlarda Azərbaycan dövlətinə və xalqına qarşı formalaşmış patoloji nifrətdən irəli gələn düşmənçilik, xəyanətdir. Onlar heç bir halda anlaya bilmirlər ki, düşmənçilikləri, xəyanətləri ilə 29 il öncə Azərbaycan dövlətinin və xalqının üzərinə vurduqları ləkəni şəhidlərimiz, qazilərimiz qanları, canları ilə təmizlədilər.

Ağdam rayonuna səfəri eyni zamanda partiyaların həmrəylik nümayiş etdirməklə, Ermənistanın işğalçılıq siyasətinə bir etiraz hərəkəti kimi də dəyərləndirmək olar. Çünki Ağdam rayonu 30 ilə yaxın müddətdə işğal altında qalıb və erməni vandalizminin, barbarlığının əyani şahidi olub. Həmçinin partiyaların birgə Ağdama səfəri erməni vandalizminə, barbarlığına göz yuman beynəlxalq təşkilatlara, bəzi dövlətlərə bir centlmensayağı etiraz idi. Lakin görünən odur ki, AXCP və Müsavat milli həmrəylikdə yer almaq istəmir, Ermənistanın işğalçılıq siyasətinə etiraz etmir, eləcə də erməni vandalizminə, barbarlığına göz yuman beynəlxalq təşkilatlara, dövlətlərə dəstəklərini ifadə etmiş olurlar. Partiyaların sədrlərinin və fəallarının işğaldan azad olunmuş rayona səfəri hər bir azərbaycanlının böyük arzusu, niyyəti kimi də qiymətləndirilməlidir. Bu gün kim razılaşmaz ki, işğaldan azad olunmuş ərazilərə səfər etsin? Amma görünür cəmiyyətimizdə, partiyaların sırasında hələ də bu arzu ilə yaşamayanlar var imiş.

İndi siz deyin, bu gün Qarabağın işğaldan azad olunmasına sevinməyən, erməni vandalizminin, barbarlığının şahidi olmuş Ağdama səfəri siyasi oyun, mənasız adlandıran AXCP və Müsavat hakimiyyətdə olsalar, xalqın və dövlətin başına hansı oyunları açardılar? Yaxud, bu gün Ermənistanın işğalçılıq siyasətinə, erməni vandalizminə, barbarlığına göz yuman beynəlxalq təşkilatlara etiraz etməyən AXCP və Müsavat Partiyası dövlətin və xalqın milli maraqlarını necə qoruya bilər? Bu gün həmrəylik nümayiş etdirməyi bacarmayan AXCP-Müsavat cütlüyü dövlətin və xalqın ağır, çətin günündə nə edər? 1993-cü ildə olduğu kimi qaçacaqlarmı, vəzifələrini dondura-caqlarmı, torpaqlarımızı satacaqlarmı?..

*Ramil Vəlibəyov,*
*YAP Sosial media qrupunun rəhbəri*

# "Bakcell"in 4G şəbəkəsinə keç və 5 GB İnternet hədiyyə al!

Bakcell şirkəti özünün 4G/LTE şəbəkəsinə keçmək istəyən abunəçilər üçün xüsusi kampaniya elan edib. Belə ki, 3G SİM-kartlarından istifadə edən abunəçilər "Bakcell"in istənilən müştəri xidməti mərkəzi, rəsmi və ya diler mağazasına yaxınlaşmaqla pulsuz 4G SİM kartı və 5 GB həcmində internet trafiki hədiyyə alacaqlar.

"Bakcell"in 4G şəbəkəsinə keçməklə, abunəçilər ölkənin ən sürətli mobil şəbəkəsindən yararlanacaq və qarşıdan gələn Novruz bayramı günlərində yüksək sürətli Bakcell internetindən PULSUZ faydalanacaqlar. "Bakcell"in 4G xidməti gündəlik mobil internet istifadəsi üçün daha yüksək sürəti təmin edir. 4G əsasən daha sürətli, rahat və sabit texnologiya deməkdir.




Bakcell şirkətinin qurduğu ən müasir 4G şəbəkəsi abunəçilərə öz smatrfonlarının ən maraqlı funksiyalarından tam şəkildə yararlanmaq imkanı verir. Bu isə o deməkdir ki, sözügedən texnologiya sayəsində Bakcell abunəçiləri 4K kontentini izləmək və yükləmək, onlayn təhsil, konfrans və əyləncə proqramlarına ani giriş əldə etmək, HD keyfiyyətində onlayn video strimlərini izləmək və yüksək sürətli internet tələb edən digər xidmətlərdən istifadə etmək imkanına malikdirlər. Dünyaca məşhur OOKLA şirkəti üç dəfə ardıcıl olaraq Bakcell şəbəkəsini Azərbaycanın ən sürətli mobil şəbəkəsi adlandırıb.

# Yasamal qəbiristanlığında oğurluq edənlər saxlanıldı



Paytaxtın Yasamal rayonunda yerləşən qəbiristanlıqda məzarların üzərlərinə qoyulan gül dəstələrini oğurlayan şəxslər saxlanılıblar.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Yasamal Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində qeyd edilən hadisəni törətməkdə şübhəli bilinən əvvəllər məhkum olunan paytaxt sakinləri Elşən Abduləliyev və Əli Əliyev tutularaq istintaqa təqdim olunublar.

Araşdırma zamanı onların müxtəlif vaxtlarda həmin qəbiristanlıqdan ümumi dəyəri 1300 manat olan gül dəstələrini oğurladıqları və paytaxtın müxtəlif yerlərində satdıqları məlum olub. Həmçinin saxlanılan zaman E.Abdulәliyevin üzərindən bir büküm narkotik vasitə olan heroin də aşkar olunaraq götürülüb.

Faktla saxlanılan şəxslər barəsində Yasamal Rayon Polis İdarəsinin İstintaq Şöbəsində araşdırmalar davam etdirilir.



İLHAM

# Toy, toy, toy olacaqmı?

***Gəlin razılaşaq ki, elə insanlar var ki, sanki ağızları faldır. Birinin yaşayışı, digərinin istedadı hədəf seçildisə, o mütləq çökəcək. Bəlalərinə el arasında "pis göz", "nəfsi iti" məxluqlar deyilir. Bir də görürsən ki, biri gözlənilmədən mal-mülk sahibi olur, özünə xarici avtomobil alır, bağ evi tikdirir. Qonşusu da bunu görüb, elə hey onun haqqında danışır, dostuna-tanışına onu misal olaraq göstərir. O qədər danışır, mal-mülkünə köks ötürür ki, axırda o adam böyrü üstə çökür, demək olar ki, hər şeyini itirir. Görünür bu baxımdandır ki, deyirlər ki, "yüz yeyənin olsun, bir deyənin olmasın".***

Bəzən cəmiyyətdə tanınan şair və yazıçıların, müğənnilərin şəxsi həyatlarına da müdaxilələr edilir, onların barəsində sosial şəbəkələrdə min cür şəbədələr qoşulur. Müğənnilər haqqında o qədər söz-söhbətlər qoşub, "dastan"lar yazdılar ki, axırda bu biçarələr çökdülər. Dünyanın bəlasına çevrilən pandemiyanın tüğyan etməsi səbəbindən Azərbaycanda fəaliyyət göstərən müğənnilərin, şou əhlinin demək olar ki, hamısı ağzı günə qaldılar. Bir qədər diribaşları əl açıb, dilənməkdənsə, qara-qura işlərlə məşğul olmağa üstünlük verirlər. Bəziləri taksi fəaliyyəti ilə məşğul olur, digər qismi də, dost-tanışlarının ofisində çalışırlar. Yəni bir təhər çullarını sudan çıxarırlar. Bu arada "Sadlıq evləri"nin sahiblərinin vəziyyətləri daha acınacaqlıdır. Çünki pandemiya səbəbindən "Şadlıq evləri"nin fəaliyyətləri qadağan olunub. Yenə o məsələyə qayıdıram ki, müğənniləri, şou əhlini, o cümlədən də "Şadlıq evləri"nin sahiblərini pandemiyadan çox, dedi-dedi yıxdı. O qədər dedilər ki, " Şadlıq evləri"nin sahibləri "pula- pul demirlər", "bir gecə də, yüz min mant qazanırlar", "israfçılığa yol verilər" və sair ittihamlar, nəhayət "müsbət" nəticəsini verdi. Belə ondan ibarətdir ki, ittiham hədəfinə tuş gələnlər sırasında cavanlar da əziyyət çəkirlər. Yəni toy-nişan mərasimlərinə qadağa qoyulması səbəbindən yüzlərlə gənc qız və oğlan nişanlı olaraq neçə aylardır ki, gözləyirlər. Pandemiyada ki, yekunlaşmaq bilmir. Əksinə, dünyada və ölkəmizdə baş verənlərə əsasən, demək olar ki, virusa yoluxanların sayı artmaqdadır. Bu isə, o qənaəti yaradır ki, pandemiyanın üçüncü dalğası baş verə bilər. Nə etməli? Birincisi, nişanlı gənclər nigaha daxil olub, evlənsinlər. İkincisi, işsiz müğənnilər və şou əhli nəyəsə ümid bəsləmədən, bazarda və ya ticarət yaramarkalarında özlərinə iş tapıb, xeyirli fəaliyyət yolu tutsunlar. İnşaallah pandemiya bitər və yenidən hərə bacardığı və qazanclı sahə hesab etdikləri işlərinin başına keçərlər. Ümumiyyətlə isə, hesab edirəm ki, insan olan bəşər övladı, hər bir qəzavü-qədəri təbii qarşılamalıdır. Həm də şükür edənlərdən olmalıdır. Məsəl var deyilir, "yuxarı baxıb köks ötürüncə, aşağı baxıb şükür etmək lazımdır". Bizlər başqa biri üçün bir iş görəndə və ya yardım göstərəndə qarşılığında təşəkkür umuruq. Bu olmayanda həmin insanı ürəyimizdə qınayır, haqqında yaman sözlər söylənirik. Nəzərə alın ki, yerin-göyün, bütün kainatın yaradıcısı Allah da insandan istəyir ki, ona verdiyi nemətlərə görə şükür etsinlər. Baxmayaraq ki, Allahın bizim təşəkkürümüzə ehtiyacı yoxdur, ancaq insanları şükür etmələrinə görə vəzifləndirmişdir. Söz yox ki, insan özünün və ailəsinin ruzi təminatı üçün çalışmalı və əmək sərf etməlidir. Böyük əmək sərf edib, az qazansa, insan bundan narahat olmamalıdır. Yəni buna görə, şükür edənlərdən olmalıdır. Uca peyğəmbərimiz Məhəmməd (s.ə.) buyurur ki, "Ruzi qapısı göydən ta yerin dibinədək açıqdır. Allah hər bir insana ehtiyacına, qeyrətinə və mərhəmətinə görə ruzi verir".

Müasir dövrümüzdə elə insanlar var ki, əldə etdyi var-dövlət onun nəsilbənəslinə bəs etsə də, gözü doymur. Yenə də, pul-para əldə etməyə, var-dövlət yığmağa çalışır. Ən pisi də ondan ibarətdir ki, bu kateqoriyadan olan məxluqlar var-dövləti alın təri ilə deyil, qeyri-qanuni yollarla əldə etməyə çalışırlar. Bu da təbii ki, qınanılır, cəmiyyət tərəfindən açıq şəkildə pislənilir. Rüşvətə bulaşan, korrupsiya meydanında at oynadan vəzifə sahibləri əksər hallarda uzağa gedə bilmirlər. Bir gün yatdığı yerdən gözünü açanda görür ki, başının üstündə görünüşündən insanın canına üşütmə salan qara maskalılar dayanıb. Həmin an, rüşvətxor məmur cılızlaşır və qorxudan bəlkə də yüz dəfə ölüb-dirilir. Elə ölkəmizdə neçə-neçə rayonun icra hakimiyyətlərinin başçıları, nazir müavinləri, idarə-müəssisə rəhbərləri qara maskalılar tərəfindən həbs ediliblər. Belə məxluqlar layiq olduqları cəzanı alırlar. Əgər onlar şükür edənlərdən olub, əhalini söyüb talamasaydılar, sakit və rahat şəkildə xidmətlərini davam etdirərdilər. Nə isə... Həzərat, mömin insanlardan olun. Çünki mömin insanlar həqiqi imana malik olduqları üçün nemətin qədrini bilir və şükür edərlər. Şükür edənlərdən olaq.

ARAŞDIRMA

# Biri ala göz deyir, biri qara göz...



### Gözlərin yeni dəbi olan linzalar dünyada hər gün 3 insanı kor edir

Bir müddət əvvəl dünya mətbuatı göz linzaları ilə bağlı maraqlı və qəribə bir məlumat yaydı. İngiltərədə yaşayan Eşli Haydın başına təhlükəli bir hadisə gəlib. 18 yaşlı qız linza istifadə etməyə başladıqdan sonra gözlərində bulanıqlıq və qaşınma başlayıb. Həkimə müraciət edən qıza dəhşətli bir diaqnoz qoyulub- gözünü parazit yeyir! Ətraflı analizlərdən sonra məlum olub ki, parazit gözə linzalar vasitəsi ilə daxil olaraq onun gözündə "akantamoba" adlı infeksiyanı yaradıb. Mikroskopik bir parazit olan "akantamoba" su və hava yolu ilə linzaya yapışaraq gözə daxil ola bilir. Göz bəbəyinə yapışan parazit və süfrələri əməliyyat vasitəsi ilə təmizlənib. Qızın kor olmaqdan son anda qurtulduğunu deyən həkimlər Eşlinin hələ uzun müddət müalicə alacağını deyib. Eşli kor olmaqdan son anda qurtuldu, amma bu dünyada hər gün 3 nəfərin linzalar səbəbindən kor olması gerçəyini dəyişmir.

### "Eynəyimə lağ edirdilər deyə..."

İki ildir linzadan istifadə edən Aytac Məmmədova deyir ki, əvvəllər gözlərinin görmə qabiliyyəti zəif olduğu üçün eynəkdən istifadə edib: "Amma ailə qurduqdan sonra gəlin köçdüyüm rayonda eynəyimə qəribə baxırdılar. Hamı ya dəb, ya da maraq üçün eynək taxdığımı düşünürdü. Yoldaşım da linza ilə əvəzləməyi təklif etdi. Paytaxtda bir həkim 6 aylıq linza təyin etdi, istifadəyə başladım. Əvvəllər narahat olurdum, alışa bilmirdim. Bəzən gözüm qaşınırdı, sulanırdı, bəzən isə quruluq yaranırdı. İki aydan sonra müayinəyə getdim, həkim gözümdə problem olduğunu dedi, müalicə yazdı. Linzaların keyfiyyəti yaxşı deyilmiş. Yenisi ilə əvəzlədi, amma yenə də narahatam. Evdə istifadə etmirəm, eynək taxıram, yalnız bayıra çıxanda gözümə qoyuram. Üstəlik, maksimum 6 ay istifadə etmək olur, sonra yenisini almaq lazım gəlir. Eynəyi isə bir dəfə aldıqda uzun illər istifadə edirsən".

### Ya ehtiyacdan, ya kefdən...

Ümumiyyətlə, bu gün dünyada daha çox gənclərin istifadə etdiyi linzalar iki məqsədlə istifadə edilir. Birinci səbəb gözlərin görmə qabiliyyətinin zəif olmasıdır, eynəkdən istifadə etmək istəməyən insanlar görmə qabiliyyətini linzalar vasitəsi ilə bərpa edir. İkinci səbəb isə rəngli gözə sahib olmaq istəyidir. Gözlərinin rəngindən məmnun olmayan insanlar rəngli kontakt linzalar vasitəsi ilə istədiyi rəngdə gözə sahib olur.

Linzaların gözə zərərlərini, sağlamlıq üçün təhlükəli olub-olmamasını öyrənmək üçün mütəxəssislərlə söhbətləşdik. Həkim-oftalmoloq Reyhan Əliyeva deyir ki, linzalar indi daha çox gənclər tərəfindən istifadə edilir: "İndi rəngli gözlər dövrümüzün dəbi hesab edilir. Çox pasiyent rəngli gözdən xoşu gəldiyini və göz rəngini də bu linzalar vasitələri ilə dəyişdiyini deyir. Amma təəssüf ki, bir çoxu linzaların doğru istifadə qaydalarını bilmir, təmizliyinə diqqət etmir. Bir çox gənc linzanı kosmetik vasitə hesab edir. İstər yeni rəngli gözə sahib olmaq üçün istifadə edilən nömrəsiz linzalar, istərsə də görmə qabiliyyətini artırmaq üçün optik linzalardan istifadə edən hər kəs eyni təhlükəni daşıyır - doğru istifadə etməməklə gözə zərər verə bilər".

### Gözümüz "nəfəs almır"

Gözün buynuz qişasının göz yaşı və oksigenlə qidalandığını deyən müsahibimiz bütün linzaların buynuz qişasının bu vacib qidaları almasını əngəllədiyini deyir. Göz quruluğuna uyğun olmayan linzaların qısa və uzun müddətli istifadəsi gözdə quruluq və ya allergik problemlərə rəvac verdiyini deyən oftomoloq bildirir ki, mikroorqanizmlər və yad cisimlər üçün əlverişli mühit yaradan linzalarla doğru davranmaq vacibdir. Belə ki, yaz aylarında gözdə linza olarkən dənizə, hovuza girmək məsləhət deyil. Çünki göz qapaqları tez-tez ötrülüb-açılır və beləcə göz bəbəyi davamlı təsirə məruz qalır. Linza isə buynuz qişasında istifadə edilən bir protez olduğu üçün gözdə mikrob yuvası yaratması riskini daşıyır. Xüsusilə də çox tozlu, dumanlı, çirkli mühitlərdə və siqaret çəkilən yerlərdə bu risk yüksəkdir. Bundan başqa da linzalar davamlı gözdə qalanda qızarmalara və qaşınmalara səbəb olur.

### Həkimsiz linza almayın

Müsahibimiz deyir ki, bütün linzalar - istər optik, istərsə də nömrəsiz rəngli linzalar hər gün çıxarılmalı, gecə linzasız keçirilməli, səhər yenidən gözə bərkidilməlidir: "Düzdür, indi istənilən şəxs normal qiymətə linza alıb istifadə edə bilər. Amma həkimin təyinatı olmadan istənilən insan istənilən vaxt linza istifadə edə bilməz, bu təhlükəlidir. Çünki bəzi kimyəvi xüsusiyyətləri olan linzalar gecə istifadə edildikdə gözün qidalanma problemlərinə səbəb olur. Linzalar buynuz qişasının damarlarının ağarmasına səbəb ola bilər. Eyni zamanda mikroblanan gözdə iltihablanma və başqa xəstəliklər yaranar".

Həkim eynək təyinatı yazılmış reseptlə linza almaq istəyənlər barədə də danışdı: "Linzaların markası, markanın modeli, əyrilik radiusu, diametr və tərkibi çox vacib detallardır. Həmçinin, həkim sadəcə linzanın nömrəsini yazıb resepti pasiyentin əlinə verməməlidir ki, get al istifadə et. Həkim özü bir neçə dəfə istifadə qaydalarını pasiyentə başa salmalıdır. Eyni zamanda, linzaların optika eynəklərinin satıldığı yerdə satılması doğru deyil. Linzalar alınarkən qablaşdırılması və paketinə diqqət edilməlidir. Sağ və sol göz linzalarını bir-birindən ayırmaq vacibdir. Barmaqla istifadəsi çətin olduqda naqqaşdan istifadə etmək olar. Amma əllər və naqqaş təmiz olmalıdır".

### Təyinatı da müxtəlifdir

Bakıda fəlaiyyət göstərən klinikalardan birindən bildirdilər ki, kontakt linzalar həkim nəzarəti ilə klinika şəraitində tətbiq edilir. Linzaların kosmetik, tibbi məqsədli olaraq təyin edildiyini deyən klinika rəsmisi bildirdi ki, tətbiq edilən linzaların miopiya, hipermetopiya və astıqmatizm, qaz keçirən yarı sərt linzalar, ktarakta əməliyyatı keçirmiş yetkin insanlar və uşaqlar üçün afak linzalar, uzağı və yaxını göstərən multifokal linzalar, keratokonus linzaları, təbii şəkli pozulmuş gözlər üçün olmaqla bir neçə təyinatı var.

Ümumiyyətlə, linzalar yumşaq və sərt olaraq 2 növə ayrılır. Sərt linzalar tozu keçirə bildiyi üçün pasiyentlər daha çox yumşaq linzalara üstünlük verir. Sərt linza istifadə edilərkən külək zamanı gözə təmas edən tozu hopdurur. Linzalar maksimum 6 aylıq istifadə üçün yararlıdır. Amma həkimlər adətən pasiyentə linzanı bir, ya iki ay istifadə etdikdən sonra yeniləməyi məsləhət görür.

### 20 manatdan 100 manatadək...

Optik eynəklərin satışı ilə məşğul olan Ceyhun Ələsgərov isə bildirir ki, 1 günlük, bir aylıq, 6 aylıq və 1 illik linzalar var. Onların istifadəyə yararlılığı da məhz bu müddət bitdikdə bitir. Linza növləri arasında ən çox istifadə edilən və təlabat olan isə kontakt linzalardır: "Əslində, onun digər linzalardan fərqi çox deyil. Sadəcə o bəbəyimizin ölçüsündən bir qədər böyükdür və gözümüzün giləsindən əlavə ağ hissəsinin az hissəsini də örtə bilir. Dolayısı ilə göz giləsi daha böyük görünür. Təbii ki, bunun zərərləri yarana bilər. Fikrimcə, məcbur olmadıqdan sonra onu gözümüzə salmağa ehtiyac yoxdur. Çünki nə qədər həssaslıqla hazırlansa da o bir yad cisimdir. Həmçinin, daha böyük hissəni örtdüyü üçün gözümüzə daha az hava dəyir. Həkimlər deyir ki, gözümüzün hava almasını və lazımı qidalanmasını çətinləşdirir".

O ki qaldı linzaların qiymətinə, bu, standart deyil. Belə ki, kosmetik linzaların qiyməti 20-30 manat, optik linzanın qiyməti isə 50-100 manat arasındadır. Gözün tibbi cihazla ixtisaslı həkim tərəfindən müayinəsi üçün ödəniləcək məbləği də əlavə etsək, linza pasiyentə ən azı 100 manata başa gəlir.

### "Bu, dəb xatirinə hoqqabazlıqdır"

Psixoloq İlham Bayramov deyir ki, indi linza taxanların böyük əksəriyyəti bunu dəb xatirinə, göz rəngini dəyişmək üçün istifadə edir, lakin bunun gələcəkdə hansı fəsadlar yaradacağını düşünmürlər: "Göz zəifdirsə, bunun üçün müalicələr var, eynəklər var. Gözü gücləndirməyin təbii üsulları var. Nadir hallarda məcburi çıxış yolu olaraq linzadan istifadə edilə bilər, lakin düşünürəm ki, belə hallar 1 faizdən artıq ola bilməz. Yaradanın bizə bəxş etdiyi ən qiymətli nemətlərdən olan gözümüzü dəb xatirinə korlamaq lazım deyil".

Pxisoloq deyir ki, linzalara əsasən gənc qızlar üstünlük verir: "Nə oldu, bütün kateqoriyalardan ancaq gənc qızlardamı gözlərə linza taxmağa tibbi ehtiyac olur? Demək bu sadəcə özünüreklam, dəb xatirinə hoqqabazlıqdır. Özü də ən zərif orqanımız olan gözlə belə zarafatlara ehtiyac yoxdur. İndi bəzi həkimlər də pul xatirinə linza məsləhət görürlər, lakin bununla pasiyentlərinə zərər vurduqlarını nəzərə almırlar. Linzadan istifadə düşünürəm ki, 99 faiz halda fizioloji-tibbi yox, psixoloji səbəblərlə bağlıdır. Bu barədə düşünsünlər, əks halda gələcəkdə nəticələri ağır olacaq".

*Lalə Mehralı*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb.***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

20 mart

# Avropa Liqasında 1\4 final mərhələsinin püşkü atılıb




Futbol üzrə UEFA Avropa Liqasının 2020-2021-ci il mövsümünün 1\4 final mərhələsinin püşkü atılıb. UEFA-nın İsveçrənin Nyon şəhərindəki mənzil-qərargahında keçirilən püşkatmanın nəticələri aşağıdakı kimidir:

"Qranada" (İspaniya) - "Mançester Yunayted" (İngiltərə);

"Arsenal" (İngiltərə) - "Slaviya Praqa" (Çexiya);

"Ayaks" (Niderland) - "Roma" (İtaliya);

"Dinamo Zaqreb" (Xorvatiya) - "Vilyarreal" (İspaniya).

Qeyd edək ki, "Qranada" - "Mançester Yunayted" qarşılaşmasının qalibi yarımfinalda "Ayaks" - "Roma" görüşündə üstün olan komanda ilə üz-üzə gələcək. "Dinamo Zaqreb" -"Vilyarreal" cütünün qalibi isə "Arsenal" (İngiltərə) - "Slaviya Praqa" duelinin qalibi ilə qarşılaşacaq.

Dörddəbir final mərhələsinin ilk görüşləri aprelin 8-də, cavab matçları bir həftə sonra oynanılacaq. Turnirin həlledici görüşü mayın 26-da Polşanın Qdansk şəhərindəki eyniadlı stadionda keçiriləcək.

# Türkiyə millisinin heyəti açıqlandı



Futbol üzrə Türkiyə millisinin DÇ-2022-nin seçmə mərhələsinin Niderland (24 mart), Norveç (27 mart) və Latviya (30 mart) ilə oyun üçün heyəti açıqlanıb. Bu barədə qardaş ölkənin futbol federasiyasının saytı məlumat yayıb. Baş məşqçi Şenol Güneş aşağıda adları qeyd edilən futbolçulara dəvət göndərib:

Qapıçılar: Mert Günok, Uğurcan Çakır, Altay Bayındır, Gökhan Akkan.

Müdafiəçilər: Zeki Çelik, Nazım Sangare, Merih Demiral, Ozan Kabak, Mert Müldür, Çağlar Söyüncü, Kaan Ayhan, Umut Meraş, Caner Erkin

Yarımmüdafiəçilər: Okay Yokuşlu, Taylan Antalyalı, Dorukhan Toköz, Ozan Tufan, Orkun Kökçü, İrfan Can Kahveci, Emre Kılınç, Yusuf Yazıcı, Halil Akbunar, Hakan Çalhanoğlu, Deniz Türüç

Hücumçular: Burak Yılmaz, Enes Ünal, Kənan Karaman, Cenk Tosun.

# Ancelinadan Bredlə bağlı şok iddia




Boşanma prosesi hələ də rəsmi olaraq yekunlaşmayan Ancelina Coli və Bred Pit cütlüyü yenidən gündəmə gəlib. 45 yaşlı 6 uşaq anası Ancelina Bredlə bağlı şok iddia irəli sürüb. O bildirib ki, münasibətləri müddətində Bred ona şiddət göstərib. Aktrisa bununla bağlı sənədlərin olduğunu da qeyd edib.

Detallar bəlli olmasa da, Ancelinanın əlində faktların olduğu, üstəlik azyaşlı uşaqlarının da şahidlik edə biləcəyi deyilir. Qeyd edək ki, 2004-cü ildə birlikdə olmağa başlayan, cütlük, 2014-ci ilin avqust ayında evlənib. Məşhur cütlüyün üçü bioloji, üçü də övladlıq olmaqla altı uşağı var./Sfera.az

# Bu məhsullar xərçəngin profilaktikası üçün çox faydalıdır

*Bəzi qida növləri xərçəngə qarşı mübarizədə faydalı ərzaq məhsulu kimi tanınır. Görən, onlar doğrudanmı panaseyadır?*

Brokoli: xırtıldayan tərəvəzlərdə olduğu kimi digər kələm növlərinin tərkibində də qlükozinolatlar var. Heyvan və hüceyrələr üzərində aparılan təcrübələrdə xardal yağının şiş hüceyrələrinin böyüməsinə maneçilik törətməsi müşahidə olunub. "Məsələn, baş kələm prostat və ağciyər xərçənginə təsir edir", - deyə Münhen Onkologiya Mərkəzinin rəhbəri Folkmar Nüssler təsdiqləyir. Bu barədə "MedikForum" saytı yazır:

Pomidor: paslanın prostat xərçəngi riskini azaltdığı bildirilir. Çoxlu pomidor və ya tomat sousu yeyən kişilərdə bu şişin yaranma ehtimalı pomidor yeməkdən imtina edənlərə nisbətdə 20 faiz aşağıdır. Bunu Amerikalı tədqiqatçıların 2018-ci il üzrə metaanalizi sübut edir.

Zəncəfil: zəncəfilin iltihab əleyhinə inqrediyenti xüsusilə laboratoriya işlərində xərçəng hüceyrələrinə inhibitor təsir göstərir. "Bu təsir yoğun bağırsaq, süd vəzisi,



prostat, mədəaltı vəzi və ağ ciyər də daxil olmaqla müxtəlif karsinomlarda sübut edilmişdir", - deyə Folkmar Nüsler bildirib.

Tədqiqatçılar xərçəng əleyhinə eyni gücdə olan molekulları pomidor, zəncəfil, yaşıl çay, qaragilə, sarımsaq və sitrus meyvələrində də aşkarlayıblar. Ancaq bu cür nəticələrə baxmayaraq, ekspertlər xərçəngdən qorunmağa gəldikdə ehtimal olunan super qidalara diqqət yetirməməyi məsləhət görürlər.

Buna görə də onkoloqlar çəkini azaltmağı, siqareti və alkoqollu içkiləri buraxmağı, düzgün qidalanmağı məsləhət görürlər. Yağ və şəkər çöküntüləri degenerasiya olunmuş hüceyrələrin böyüməsini sürətləndirirlər. Əgər siz boşqabınızı xırtıldayan salatlar, paxlalı tərəvəzlərlə doldursanız, mədənizdə zərərli qidalar üçün daha az yer qalacaq.

# Dünyada ən xoşbəxt ölkələrin adı açıqlandı



Finlandiya dörd ildir dünyanın ən xoşbəxt ölkəsi adına layiq görülür. Bu, BMT-nin sifarişi əsasında hazırlanaraq bu gün açıqlanmış "Dünya xoşbəxtlik hesabatı 2021" ("World Happiness Report 2021") adlı sənəddə qeyd olunub.

Əvvəlki illərdə olduğu kimi, bəxtəvərlik yarışında rəqiblərini xeyli qabaqlayan Finlandiyadan sonrakı yerləri ardıcıl olaraq İslandiya, Danimarka, İsveçrə, Niderland, İsveç, Almaniya, Norveç, Yeni Zelandiya, Avstriya tutur. Azərbaycan bu reytinqdə 90-cu pillədədir.

Qeyd edək ki, 2012-ci ildən etibarən BMT Davamlı İnkişaf Həlləri Şəbəkəsi Qlobal Təşəbbüsü (Suistanable Development Solutions Network A Global Initiative for UN) tərəfindən hər il tərtib edilən hesabatda gözlənilən ömür uzunluğu, sosial təminat səviyyəsi, adambaşı ÜDM və s. nəzərə alınır.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600